№ 40 (983) 5-11 oktyabr 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## Azərbaycan sabitlik, inkişaf adasıdır

### İlham ƏLİYEV




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Qobustan rayonuna səfərdə olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Qobustan rayonuna səfəri çərçivəsində Bakı-Şamaxı-Muğanlı avtomobil yolunun 55-101-ci kilometrlik hissəsini əhatə edən Cəngi-Bədəlli yolunun açılışında iştirak edib.

"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bakı-Şamaxı-Muğanlı avtomobil yolunun Cəngi-Bədəlli hissəsi layihəyə uyğun olaraq dörd zolağa genişləndirilib. Yolun ümumi uzunluğu 46 kilometr, eni isə 27,5 metrdir. Yol birinci texniki dərəcəyə aiddir. Layihə çərçivəsində yolboyu 16 yeraltı və 6 yerüstü piyada keçidi tikilib. Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsmişdir.

* * * * *

Oktyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qobustanda yeni tikilmiş 100 yerlik uşaq bağçasının açılışında iştirak edib.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də "Qobustan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin yekunlaşması ilə bağlı təşkil olunan mərasimdə iştirak edib.

Qobustan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması Azərbaycan hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi" çərçivəsində həyata keçirilib. Layihə 2030-cu ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla Qobustan şəhərində 11700 nəfərin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihə çərçivəsində rayonun Təsi, Bədəlli, Sədəfli, Dərəkənd, Cəmcəmli, Ərəbqədim və Göydərə kəndlərinə suyun verilməsi təmin edilib. İcrasına 2015-ci ildə başlanan layihə çərçivəsində rayonun Təsi kəndinin yaxınlığında ümumi məhsuldarlığı saniyədə 87 litr olan 6 subartezian quyusu qazılıb, Daşarası və Nərimankənd kəndlərinin ərazisində 2 su anbarı inşa edilib. Eyni zamanda, 14,4 kilometr uzunluğunda magistral kəmər çəkilib, mürəkkəb relyef şəraiti nəzərə alınmaqla suyun şəhərə çatdırılması üçün üçpilləli nasos sistemi quraşdırılıb.

Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, mərasimdə çıxış etmişdir.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına layihə barədə məlumat vermişdir. Layihə çərçivəsində Qobustan şəhərində 68 kilometrlik içməli su şəbəkəsi yaradılıb, 1900 ünvana birləşmə verilib, bütün abunəçilər sayğacla təmin edilib. Artıq bütün şəhər əhalisi yeni şəbəkə vasitəsilə keyfiyyətli və dayanıqlı su ilə təmin olunur. Layihəyə uyğun olaraq Qobustan şəhərində ilk dəfə kanalizasiya şəbəkəsi yaradılıb, 42 kilometr uzunluğunda kanalizasiya xəttinin və 1160 baxış quyusunun inşası yekunlaşıb və hər bir evə birləşmə verilib. Şəhərdə yaranan tullantı sularının toplanıb təmizləyici qurğuya ötürülməsi üçün 7 kilometrlik kanalizasiya kollektoru da tikilib. Tullantı sularının zərərsizləşdirilməsi üçün məhsuldarlığı sutkada 2500 kubmetr olan təmizləyici qurğunun inşası üzrə keçirilən tender prosedurları son mərhələdədir və qarşıdakı aylarda tikinti-quraşdırma işlərinə başlanılacaq.

Bildirilmişdir ki, layihə çərçivəsində Qobustan Sukanal İdarəsi üçün yeni inzibati bina da inşa edilib. Burada işçi otaqları, informasiya-texnologiyaları otağı, iclas zalı yaradılıb. Bir sözlə, burada müştərilərə yüksək səviyyədə xidmət göstərmək üçün hərtərəfli şərait var. İnzibati binanın həyətində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Qeyd olunmuşdur ki, yeni layihənin icrasına qədər Qobustan şəhərində 1950-ci illərdə yaradılmış su təchizatı sistemlərindən istifadə olunurdu. Şəhərə içməli su Xaltava və Təsi kəndləri ərazisində yerləşən subartezian quyularından verilirdi. Əvvəllər mövcud olmuş 42 kilometrlik su şəbəkəsi şəhəri tam əhatə etmir və istismar tələblərinə cavab vermirdi. "Azərsu" ASC 8500 nəfər əhalisi olan Qobustan şəhərinin təqribən 20 faizinə xidmət göstərə bilirdi. İçməli su həftənin 3 günü olmaqla cəmi 1-2 saatlıq qrafiklə verilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Qobustan şəhərində kanalizasiya sistemi isə yeni layihə icra edilənədək ümumiyyətlə mövcud olmayıb.

Sonra Prezident İlham Əliyev Qobustan şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.

* * * * *

Oktyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qobustan rayonunun əsaslı təmir edilən Təklə-Sündü-Xilmilli avtomobil yolunun açılışında iştirak edib.

"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, Təklə-Sündü-Xilmilli avtomobil yolu 15 min nəfərin yaşadığı 6 kəndi birləşdirir.

Ümumi uzunluğu 17,2 kilometr olan yolun eni 6 metrdir. Dördüncü dərəcəyə aid Təklə-Sündü-Xilmilli avtomobil yolu 2 hərəkət zolaqlıdır. Layihə çərçivəsində müxtəlif diametrli 23 suötürücü boru tikilib, 9 avtobus dayanacağı quraşdırılıb. Bu yolun əsaslı yenidən qurulması yolboyu yerləşən yaşayış məntəqələrinin sakinlərinin rahat gediş-gəlişini təmin edəcək, nəqliyyatın hərəkətinin təhlükəsizliyində mühüm rol oynayacaq. Bundan başqa, bu layihə, eyni zamanda, bu yaşayış məntəqələrinin sosial vəziyyəti ilə yanaşı, iqtisadi durumuna da müsbət təsir edəcək. Belə ki, kənd təsərrüfatı işçiləri məhsullarını daha tez və rahat şəkildə alıcılara çatdıra biləcəklər.

## Əminəm ki, Şamaxı bundan sonra da uğurla inkişaf edəcək.

### İlham ƏLİYEV

Oktyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şamaxı rayonunda səfərə olub. O, Şamaxı-Çöl Göylər-Padar avtomobil yolunun açılışında iştirak edib.

"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat vermişdir.

Bildirilmişdir ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq, ölkəmizin 2 magistral avtomobil yolu - M-2 Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi və M-4 Bakı-Şamaxı-Yevlax avtomobil yolları arasında yeni bir bağlantı yaratmaq, respublikadakı turizm potensialından daha uğurlu istifadə etmək məqsədilə 2011-ci ildə 35,8 min nəfər əhalinin yaşadığı 18 yaşayış məntəqəsini birləşdirən Şamaxı-Çöl Göylər-Padar avtomobil yolunun tikintisinə başlanılıb. Yolun uzunluğu 53 kilometrdir. Görülən işlər nəticəsində avtomobil yolu 2 hərəkət zolaqlı olmaqla 3-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Yolun hərəkət hissəsinin eni 7 metrdir. Bundan başqa, yol boyunca müxtəlif diametrli 53 suötürücü boru tikilib ki, onların da ümumi uzunluğu 795 metrdir. Avtomobil yolunda avtonəqliyyat vasitələrinin normal hərəkətinin təşkili üçün zəruri olan yerlərdə 363 yol nişanı quraşdırılıb, 132,5 kilometr uzunluğunda yol-cizgi və yolgöstərici xətlər çəkilib.

Bu avtomobil yolunun tikintisi Aran iqtisadi rayonu ilə Dağlıq Şirvan iqtisadi rayonu arasında 53 kilometr uzunluğunda yeni avtomobil yolu əlaqəsi yaradacaq. Bu da indi istifadə edilən hərəkət marşrutları ilə müqayisədə orta hesabla 120-180 kilometr az məsafə qət etməyə, yanacağa və vaxta qənaət etməyə imkan verəcək.

Prezident İlham Əliyevə Şamaxı rayonunun Göylər-Quşçu avtomobil yolunun tikintisi barədə də məlumat verilmişdir. Ümumi uzunluğu 11 kilometr olan Göylər-Quşçu avtomobil yolunun tikintisinə 3,9 milyon manat vəsait ayrılıb. Yol-tikinti işləri qısa müddət ərzində başa çatdırılıb. Hərəkət hissəsinin eni 6 metr olan bu yolun tikilməsi 14 min nəfər əhalinin yaşadığı 4 kəndi birləşdirərək, yük və sərnişin daşınmasını xeyli yaxşılaşdırmağa imkan verəcək.

Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, çıxış etmişdir.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Şamaxı rayonuna səfəri çərçivəsində "Az-Granata" MMC-yə məxsus üzüm bağları ilə tanış olub.



"Az-Granata" MMC də Şamaxı rayonunda üzümçülüyün inkişafı istiqamətində xeyli iş görüb. Beş ildir ki, məhsul istehsal olunur. 2016-cı ildə "Az-Granata"nın üzüm bağlarından 3 min ton məhsul tədarük edilib.

Şamaxı üzüm bağları 2009-cu ildə 25 hektar sahədə salınmağa başlanıb. Hazırda üzüm bağı 375 hektardır. Onun 309 hektarı texniki üzüm növləri, 66 hektarı isə süfrə üzümü bağıdır. Ərazinin dəniz səviyyəsindən yüksəklikdə yerləşməsi, illik yağıntıların miqdarı, temperatur göstəriciləri və bu yerlərdən götürülən torpaq nümunələrinin laboratoriyalarda aparılan analizləri Şamaxıda yüksək keyfiyyətli nadir üzüm növlərinin yetişdirilməsinin mümkünlüyünə əsas verir. Üzüm bağlarında əkin və becərmə işləri aparmaq üçün xüsusi texnika da alınıb.

Cari ildə texniki üzümün hektar üzrə məhsuldarlığı 7-8 ton, süfrə üzümünün məhsuldarlığı isə 15 ton olub. Növbəti ilə hədəf texniki üzümdə 10-11 ton, süfrə üzümündə isə 17-18 tondur. 2015-ci ildə süfrə üzümü bağında ən müasir suvarma sistemi qurulub. Texniki üzüm isə dəmyə şəraitində yetişdirilir. Hazırda "Az-Granata" MMC-nin üzüm bağlarında 250 nəfər işlə təmin edilib ki, onlardan 200 nəfəri qadındır.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Şamaxı şəhərinin içməli su təchizatı layihəsinin açılışında iştirak edib.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına "Şamaxı şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi üzrə görülən işlər barədə məlumat vermişdir.

Bildirilmişdir ki, layihə Azərbaycan Hökuməti və Dünya Bankının birgə maliyyələşdirdiyi "Milli su təchizatı və kanalizasiya xidmətləri layihəsi" çərçivəsində həyata keçirilib. Bu layihə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla Şamaxı şəhərində 41 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihənin icrasına 2010-cu ildə başlanılıb. Layihəyə uyğun olaraq Şamaxı şəhərində 130 kilometr uzunluğunda kanalizasiya şəbəkəsinin və baxış quyularının inşası yekunlaşıb. Şəhərdə yaranan tullantı sularının toplanıb təmizləyici qurğuya ötürülməsi üçün kanalizasiya nasos stansiyası inşa edilib, 11 kilometr uzunluğunda kanalizasiya kollektoru tikilib.

Layihənin sonuncu mərhələsində isə məhsuldarlığı sutkada 10 min kubmetr olan bioloji tipli tullantı sutəmizləyici qurğu inşa edilərək istismara verilib. Qurğunun inşası və bütövlükdə layihə Şamaxı şəhərində əhalinin artımı, sənayenin və turizmin inkişafı perspektivi nəzərə alınmaqla həyata keçirilib. Perspektivdə Şamaxı şəhərinin böyüməsi, turizmin inkişafı nəzərə alınaraq şəhərin sabit və etibarlı su təchizatının aparılması üçün alternativ su mənbəyinin yaradılması da nəzərə alınıb.

Qeyd edək ki, Azərbaycan Hökuməti və Dünya Bankının birgə maliyyələşdirdiyi "Milli su təchizatı və kanalizasiya xidmətləri layihəsi" çərçivəsində Şamaxı şəhəri ilə yanaşı, Qəbələ, Sabirabad və Saatlı şəhərlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması da nəzərdə tutulub. Sabirabad və Saatlı şəhərlərində su təchizatı sistemlərinin tikintisi başa çatıb, bu şəhərlərə magistral su kəmərindən suyun verilməsi təmin edilib. Qəbələ şəhərində su mənbəyində işlər tam yekunlaşıb, içməli su və kanalizasiya şəbəkələrinin, həmçinin tullantı sutəmizləyici qurğunun inşası davam etdirilir. Ümumilikdə, Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarına uyğun olaraq 45 şəhər və rayon mərkəzində içməli su təchizatı və kanalizasiya layihələri icra olunur. İndiyədək bu şəhərlərin 21-də su və kanalizasiya şəbəkələrinin, 8-də isə su şəbəkəsinin inşası yekunlaşıb.

* * * * *

Oktyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əsaslı surətdə yenidən qurulan Pirqulu-Dəmirçi avtomobil yolunun açılışında iştirak ediblər.

"Azəravtoyol" ASC-nin sədri Saleh Məmmədov Pirqulu-Dəmirçi avtomobil yolunun texniki göstəriciləri barədə dövlətimizin başçısına məlumat vermişdir.

Bildirilmişdir ki, yolun uzunluğu 8 kilometrdir. Pirqulu-Dəmirçi avtomobil yolu uzun müddət təmir olunmadığı, həmçinin burada yola asfalt qatı vurulmadığı üçün hərəkət hissəsi sıradan çıxmış vəziyyətdə idi. Bu isə avtonəqliyyat vasitələrinin xüsusən payız-qış mövsümündə hərəkətində problemlər yaradırdı. Görülən işlər nəticəsində Pirqulu-Dəmirçi avtomobil yolu 2 hərəkət zolaqlı olmaqla 4-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Yolun hərəkət hissəsinin eni 3,5-4 metr, çiyinlər də daxil olmaqla yol yatağının eni 7-8 metrdir. Yol boyunca müxtəlif diametrli 14 suötürücü boru tikilib ki, onların da ümumi uzunluğu 210 metrdir.

Pirqulu-Dəmirçi avtomobil yolunun tikintisi dövlətimizin başçısının tapşırıqlarına əsasən "Azəravtoyol" ASC tərəfindən yüksək keyfiyyətlə yerinə yetirilib. Şamaxı rayonunda dağlıq ərazidə yerləşən bu avtomobil yolunun tikintisi 1,6 min nəfər əhalinin yaşadığı 5 kəndi birləşdirərək yük və sərnişin daşınmasını xeyli yaxşılaşdıracaq.

* * * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 2-də Şamaxı rayonunun Dəmirçi kəndində görülən işlərlə tanış olublar.

Görülən işlər bir neçə istiqamətdə həyata keçirilib və kompleks xarakter daşıyıb. İlk növbədə, kənddəki məscid bərpa olunub. Ölkəmizin ən qədim dini ocaqlarından olan Dəmirçi məscidi 755-ci ildə tikilib və Prezident İlham Əliyevin göstərişi ilə bərpa edilib. Bu da ondan irəli gəlir ki, dövlətimizin başçısı bütün ölkədə qədim və tarixi əhəmiyyəti olan dini ocaqların bərpasına diqqətlə yanaşır. Bir neçə il öncə Yaxın Şərqin ən qədim məscidlərindən olan Şamaxı Cümə Məscidində bərpa və yenidənqurma işlərinin aparılması da bu məqsədə xidmət edirdi.

* * * * *

Oktyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni yaradılan Şamaxı Safari Parkı ilə tanış olublar.

Müasir dövrdə ekoturizmin geniş yayılmış növlərindən biri də safari turizmidir.

Bildirilmişdir ki, "Azərbaycanda ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"dəki tapşırıqlara uyğun olaraq vəhşi heyvanlar üçün ekoloji qoruğun yaradılması məqsədilə Şamaxı rayonunun ərazisində olan Pirqulu adlanan dağ-meşə sahəsində 620 hektar ərazinin hüdudları içərisində 480 hektar ərazi beynəlxalq standartlara uyğun formada çəpərlənib. Buraya Latviya, Polşa, Slovakiya, Çexiya və Macarıstan təsərrüfatlarından üç növdən ibarət 420 baş nəcib maral, lan və muflon adlı genetik qiymətli heyvanın gətirilərək xüsusi mühafizə olunan əraziyə buraxılması təmin edilib. Görülən seleksiya və baytarlıq tədbirləri nəticəsində bu heyvanların sayı iki dəfəyə yaxın artıb. Belə ki, hazırda pakda 790 heyvan, o cümlədən 260 baş nəcib maral, 250 baş muflon və maral cinsinə daxil olan 280 baş lan var.

Ekoloji parkın daxili infrastrukturunun yaradılması istiqamətində də mühüm işlər görülüb. Belə ki, 36 kilometr uzunluğunda enli yol çəkilib. Bundan başqa, heyvanlar üçün çox sayda təbii daldalanacaqlar düzəldilib. Maral, lan və muflonları kənar təsirlərdən və yoluxucu xəstəliklərdən qorumaq üçün beynəlxalq standartlara uyğun dəmir-beton dayaqlara hörülmüş 52 kilometr uzunluğunda çəpər çəkilib. Bundan başqa, parkın ərazisində inzibati bina və qonaq evi də inşa olunub. İnzibati bina və qonaq evinin ərazisində geniş abadlıq işləri aparılıb.

# İki yeni fabrik istifadəyə veriləcək

Mingəçevir Sənaye Parkının yaradılması müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin təşkilinə, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasına hesablanıb. Bir müddət öncə sənaye parkında tikintisinə başlanılan "İplik-1" və "İplik-2" müəssisələrində Almaniya, İsveçrə, Yaponiya və Türkiyə texnologiyaları quraşdırılacaq, ilkin mərhələdə ildə 20 min ton iplik istehsal ediləcək. Bu müəssisələrdə 550 nəfərin işlə təmin olunacağı planlaşdırılır. Ümumiyyətlə isə, parkda birinci mərhələdə 2 min, sonra 5500-dən çox yeni iş yerinin açılması nəzərdə tutulub.

Hədəf yalnız yeni iş yerlərinin açılması deyil, həm də yüngül sənaye sahəsində idxaldan asılılığın azaldılması, ixrac potensialının artırılması, milli tekstil brendlərin yaradılmasıdır.



Mingəçevir şəhəri isə bu sahədə zəngin ənənəyə və kadr potensialına malikdir.

Layihə rəhbəri İsrail Asaliyev bildirib ki, şəhərdə işsizliyin aradan qaldırılmasında, əhalinin məşğulluğunun təminatında sənaye parkının çox böyük rolu olacaq. Eyni zamanda, bu park Mingəçevir Dövlət Universitetinin tələbələrinin təcrübə keçməsi üçün baza rolunu oynayacaq.

May ayında Mingəçevir Sənaye Parkına daxil olan 9 müəssisədən ikisinin tikintisinə başlanılıb. Son dörd ayda müasir texnologiya əsasında aparılan inşaat işləri hazırda sürətlə davam etdirilir. Əsas istehsal sahələri ilə yanaşı, köməkçi qurğu və avadanlıqların quraşdırılması və inşası da diqqət mərkəzində saxlanılır. "İplik-1" və "İplik-2" fabriklərinin istehsal sahələrində pambıq mahlıc şəklində qəbul olunub ipə çevriləcək. Həmçinin, corab və kosmetika müəssisələri də tikiləcək.

Layihə rəhbəri qeyd edib ki, "İplik-1" və "İplik-2" fabriklərinin hər birinin illik istehsal gücü 10 min ton olacaq. Birinci iplik fabrikinin bir hissəsində artıq tikinti işləri yekunlaşıb və havalandırma, elektrik, təhlükəsizlik sistemləri, digər kommunikasiyalar qurulur. İkinci iplik fabrikində isə metal-konstruksiya işləri davam edir. Hər iki fabrikin bu ilin sonuna kimi istifadəyə verilməsi nəzərdə tutulub.

# 18,2 min hektar yeni fındıq bağı salınıb



Ölkədə fındıqçılıq sahəsinin sürətli inkişafı ilə bağlı regionlarda yeni salınacaq fındıq bağları üçün müvafiq ərazilər müəyyən edilib, ting tədarükünə, əkin işlərinin təşkilinə kömək göstərilməsi məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki qurumlara müvafiq göstərişlər verilib. Həyata keçirilmiş tədbirlər nəticəsində ölkə üzrə ötən il 18,2 min hektara yaxın sahədə yeni fındıq bağları salınıb, fındıq bağlarının ümumi sahəsi 55,1 min hektara çatdırılıb.

Bu barədə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin yarımillik monitorinq və qiymətləndirmə hesabatında məlumat verilib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin yaydığı hesabatda bildirilir ki, altı ayda Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Zərdabi adına Elmi-Təcrübə Bazasında 2 hektar və Zaqatala Dayaq Məntəqəsində 0,5 hektar sahədə fındıq tingliyi yaradılıb.

# Göyçaydan MDB və Avropaya ixrac ediləcək

Göyçay rayonunda ilk dəfə olaraq Xurma Qurutma Fabriki və Laqostik Mərkəz inşa edilir. Regionda bənzəri olmayan bu müəssisənin inşası rayonun Yalman kəndində, 1.5 hektar ərazidə həyata keçirilir. İki binanın tikinti işlərinə bu ilin aprelində başlanılıb və indiyədək hörgü və dəmir-beton işləri görülüb, binaların dam örtüyü quraşdırılıb. Hazırda müəssisənin inşasında son tamamlama işləri görülür və avadanlıqların quraşdırılması prosesi gedir. Fabrikin və laqostik mərkəzin gələn ayın sonunda xurma istehsalçılarının və ixracatçılarının istifadəsinə verilməsi nəzərdə tutulur.

Azərbaycan Xurma İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri, göyçaylı iş adamı Qadir Yusifov bildirib ki, laqostika mərkəzinin nəzdində meyvə-tərəvəz məhsullarının saxlanılması üçün 2000 ton tutumu olan soyuducu anbar inşa edilir.

Qadir Yusifov bildirib ki, Sahibkarlığa Kömək Milli Fondunun krediti və şəxsi vəsaiti hesabına inşa edilən bu soyudu, anbar gələcəkdə yerli iş adamlarına xarici bazara daha çox xurma ixrac etməyə imkan verəcək.

Göyçayda hazırda iki soyuducu anbarın olmasına baxmayaraq, rayonda ixrac yönümlü meyvə-tərəvəz məhsullarının istehsalı ildə-ilə artdıqca onların tələf olmasının qarşısını almaq üçün yeni soyuducu anbarlara tələbat yaranır.



Bölgədə ilk dəfə olaraq inşa edilən Xurma Qurutma Fabrikində sənaye üsulu ilə qurudulacaq xurma, alma, heyva, armud, ərik və digər meyvələr Rusiya və digər MDB ölkələrinə, eləcə də Avropaya ixrac ediləcək.

Hazırda xarici ölkələrdən gətirilən avadanlıqların quraşdırıldığı bu müəssisə gün ərzində 10 ton meyvə emal etmək gücünə malik olacaq. Soyuducu anbarın və quru meyvə istehsal edəcək fabrikin imkanlarından yerli və ətraf rayonların sahibkarları bəhrələnə biləcək.

"Bildiyiniz kimi, bağbanlar yetişdirdiyi xurmanı oktyabr və noyabr aylarında müştərilərə ucuz qiymətə satırlar. Lakin bu meyvə 3-4 ay ərzində soyuducu anbarlarda saxlanılaraq xarici bazara çıxarılarsa, ölkəmizə böyük məbləğdə vəsait daxil olar. Nəticədə, xurma istehsalçıları və ixracatçıları daha çox qazanc əldə edər".

Son illər nəqliyyat xərclərinin xeyli artdığını nəzərə alan sahibkar Qadir Yusifov xurmanın bu fabrikdə qurudularaq qonşu ölkələrdə satışa çıxarılmasının səmərəli olacağını bildirib. O, soyuducu anbar və zavodda ümumilikdə 70-dən çox vətəndaşın daimi və mövsümi olaraq məşğulluğunun təmin ediləcəyini və gələcəkdə istehsal prosesinin genişləndirilməsi nəticəsində yeni iş yerlərinin açılacağını qeyd edib.

Qadir Yusifov rəhbərlik etdiyi Azərbaycan Xurma İstehsalçıları və İxracatçıları Assosiasiyasının strateji plan üzərində çalışdığını bildirib.

Qadir Yusifov hər il Azərbaycanda istehsal olunan 180 min tondan çox xurmanın 20 faizinin Göyçayın payına düşdüyünü bildirib. O, Göyçayın bütün kəndlərində ixrac yönümlü məhsul olan xurma yetişdirildiyini, kəndlilərin bu sahəyə böyük marağının olduğunu, rayon bağbanları üçün xurmanın nardan sonra ikinci gəlirli sahə hesab edildiyini və məhsulun 80 faizinin Rusiya və digər MDB ölkələrinə ixrac olunduğunu bildirib.

# İnsan resursları inkişafı strategiyasının hədəfləri konkret nəticələr əldə etməkdir

Vergilər Nazirliyi insan resurslarının təkmilləşdirilməsi, peşəkar kadr hazırlığının daha yüksək səviyyəyə qaldırılması məsələsinə xüsusi diqqətlə yanaşır. 2017-ci ildə də bu məsələ milli vergi sistemində prioritet fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Vergilər Nazirliyinin İnsan resursları departamentinin baş direktoru Faiq Şahbazovun müsahibəsinin başlıca mövzusunu bu istiqamətlərin işıqlandırılması təşkil edir.

**- Faiq müəllim, Vergilər Nazirliyinin insan resurslarının idarə edilməsi sahəsində həyata keçirdiyi siyasət indi daha çox aktuallaşıb. Bu, nə ilə bağlıdır?**

- Müasir dövrdə hər bir ölkənin vergi inzibatçılığının səmərəli təşkili inzibatçılığın müxtəlif sahələrində informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinə və müasir idarəetmə üsullarına əsaslanan bilik menecmentinin tətbiqini zəruri edir. Azərbaycan iqtisadiyyatının yeni inkişaf istiqamətləri, biliklərə əsaslanan müasir iqtisadiyyatın qurulması vergi xidməti qarşısında da yeni vəzifələr müəyyən edir və onların sırasına müasir korporativ idarəetmə sisteminin qurulması da daxildir. Bu baxımdan, Vergilər Nazirliyinin apardığı islahatların bir qismi müasir vergi inzibatçılığında bilik menecmentinin və texnologiyaların rolunun artırılmasına yönəldilib.

Vergi orqanlarının fəaliyyəti günün tələblərinə uyğun olaraq durmadan yenilənir, təkmilləşdirilir. Bu isə həmin yenilikləri, dəyişiklikləri icra edəcək resursların, xüsusən insan resurslarının inkişafını tələb edir. Bu inkişafın sistemli, planlı və ardıcıl şəkildə təşkil edilməsi məqsədilə vergilər nazirinin 15 avqust 2017-ci il tarixli əmri ilə «2017-2019-cu illərdə Azərbaycan Respublikasının dövlət vergi orqanlarında insan resurslarının inkişaf Strategiyası» təsdiq edilib. Strategiya hazırlanarkən insan resurslarının idarə edilməsi sahəsində vergi orqanlarının təcrübəsi, ümumi dövlət qulluğunda hazırda gedən proseslər, qabaqcıl beynəlxalq təcrübə (xüsusilə 2014-2016-cı illərdə Avropa İttifaqının «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» tvinninq layihəsi çərçivəsində öyrənilmiş praktikalar) nəzərə alınıb.

**- «2017-2019-cu illərdə Azərbaycan Respublikasının dövlət vergi orqanlarında insan resurslarının inkişaf Strategiyası»nın əsas missiyası nədən ibarətdir?**

- Təbii ki, hər hansı təşkilatın istənilən sahə üzrə qəbul edilən strategiyasının başlıca bir missiyası var. Bu, təşkilatın qarşısında duran məqsədlərə yüksək səviyyədə nail olmaqdır. Vergi orqanlarında insan resurslarının inkişaf strategiyası potensiallı kadrları vergi orqanlarına cəlb etmək və saxlamaq, kadrların bilik və bacarıqlarından təyinatı üzrə və məqsədyönlü şəkildə istifadə etmək yolu ilə vergi orqanlarının fəaliyyətində səmərəliliyin artırılması missiyasını daşıyır.



**- Strategiya üzrə hansı tədbirlərin görülməsi planlaşdırılır?**

- Strategiyanın Tədbirlər Planında bir çox işlərin görülməsi nəzərə tutulub. Bunların sırasında prioritet istiqamətlər kimi vergi orqanlarına işə qəbul və vakant vəzifələrin tutulmasının təkmilləşdirilməsi; rəhbər vəzifəli şəxslərin potensialının planlı və sistemli şəkildə artırılması; vəzifələrin qruplaşdırılaraq ümumi standartlarının hazırlanması; əməkdaşların yerdəyişməsi (rotasiya) mexanizminin və qaydalarının təkmilləşdirilməsi; işçilərin peşəkarlığının artırılması tədbirlərinin gücləndirilməsi; fəaliyyətin qiymətləndirilməsinin yeni mexanizminin yaradılması və nəticələrə uyğun motivasiya sisteminin qurulmasını sadalamaq olar. Bunlarla yanaşı, insan resurslarının idarə edilməsi sahəsində mövcud hüquqi aktların təkmilləşdirilməsi və sistemləşdirilməsi, kadr məlumatlarının informasiya sisteminin təkmilləşdirilməsi, insan resurslarının inkişafı sahəsində digər qurumlarla əlaqələrin və beynəlxalq əməkdaşlığın genişləndirilməsi, insan resursları ilə iş sahəsində təbliğat və maarifləndirmə işlərinin gücləndirilməsi də diqqət mərkəzində olan istiqamətlərdəndir.

**- Strategiya hansı dövrü əhatə edir?**

- Strategiya üçün nisbətən qısa - iki il yarımlıq müddət müəyyən edilib. Məlum olduğu kimi, dünyada insan resurslarının idarə edilməsi sahəsində yanaşmalar durmadan dəyişir, xüsusən iqtisadi profilli dövlət orqanları qarşısında yeni məqsədlər və hədəflər yaranır. Bu isə insan resurslarının yeni yanaşmalara, məqsəd və çağırışlara uyğunlaşdırılmasını tələb edir. Odur ki, daha uzunmüddətli strategiya özünü doğrultmaya bilərdi. Məhz bütün bunlar nəzərə alınaraq, strategiyanın 2017-2019-cu illəri əhatə etməsi nəzərdə tutulub.

**- Strategiyanın icrasının nəticəsindən əsas gözləntilər nədən ibarətdir?**

- Gözləntilərimiz çoxdur. İlk növbədə, insan resurslarının idarə edilməsinin kadrların seçimindən başladığını nəzərə alsaq, ayrı-ayrı sahələr üzrə vergi orqanlarının spesifik kadr tələbatlarını müəyyən etmək və kadrların işə qəbulunu, yerdəyişməsini və yüksəlişini bu tələblərə uyğun həyata keçirmək nəzərdə tutulub.

Dünyada proseslər sürətlə gedir, yeni informasiya mənbələri və texnologiyaları yaranır, tendensiyalar durmadan dəyişir. Bu isə əməkdaşların dəyişiklik və yeniliklərlə ayaqlaşması, onların bilik və bacarıqlarının daim təkmilləşdirilməsi zərurətini yaradır. Odur ki, daha bir gözləntimiz də əməkdaşların peşəkarlığının fasiləsiz olaraq artırılmasıdır. Peşəkarlığın artırılması prosesi tədricən könüllü formaya keçməli, əməkdaşlar özününkişafda maraqlı olmalıdırlar. Bunun üçün isə, təbii ki, onların motivasiyası gücləndirilməli, yeni həvəsləndirmə mexanizmləri işlənib hazırlanmalıdır. Qeyd edilənlər strategiyanın icrasının gözlənilən nəticələrindəndir.

İnsan resurslarının idarə edilməsi sahəsində görülən işlərin bir-biri ilə sıx əlaqələndirilməsi, məsələn, işçilərin yuxarı vəzifələrə irəli çəkilməsinin təlim-təhsil prosesləri ilə əlaqəsinin gücləndirilməsi də vacib məqamlardandır.

Yuxarıda qeyd edilən işlər nəticə yönümündə təşkil edilməli, insan resurslarının inkişafına sərf olunan resurslar əldə etdiyimiz nəticələrə adekvat olmalıdır. Odur ki, insan resurslarının inkişafına yatırılan «investisiyanın» yüksək səviyyədə geriyə dönüşünün təmin edilməsi əsas məqsədlərimizdən biridir.

Gördüyünüz kimi, gözləntilərimiz kifayət qədər iddialıdır. Onlar təkcə insan resurslarının idarə edilməsi strukturlarının deyil, eləcə də bütün əməkdaşların, əsasən rəhbər vəzifəli şəxslərin xüsusi səyini və əməkdaşlığını tələb edir. Ümid edir və inanıram ki, biz qarşıya qoyduğumuz məqsədlərin gerçəkləşdirilməsinə maksimum dərəcədə nail olacağıq.

# Ət və süd üçün 5 illik layihə



"Azərbaycan Respublikasında maldarlığın intensiv inkişaf etdirilməsinə dair 2018–2022-ci illər üçün Dövlət Proqramı" layihəsi hazırlanıb.

Bu barədə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin yarımillik monitorinq və qiymətləndirmə hesabatında məlumat verilib.

Hesabatda qeyd olunub ki, cari ilin ilk 6 ayında ölkəyə 2177 baş cins damazlıq boğaz düyələr gətirilib. Onlardan 1311-i 188 hüquqi və fiziki şəxsə güzəştli şərtlərlə satılıb, 866 baş heyvan isə hazırda karantində saxlanılır.

Ətlik-südlük istiqamətli ailə-kəndli təsərrüfatlarının yaradılması ilə bağlı İmişli, Bərdə və Ağcabədi rayonlarında həyata keçirilən pilot layihənin təcrübəsinin digər regionlarda tətbiq edilməsi istiqamətində Proqram layihəsi hazırlanıb. Əldə olunan təcrübəyə əsaslanaraq, layihənin ikinci mərhələsi kimi daha təkmil kooperativləşmə və idarəetmə modellərinin yaradılması və digər rayonlara tətbiqi ilə bağlı qiymətləndirmə işləri artıq başa çatıb. Aparılmış qiymətləndirmənin nəticəsi olaraq, layihənin həyata keçiriləcəyi rayonlar müəyyənləşdirilib.

Bununla yanaşı, hazırda layihə üzrə texniki-iqtisadi əsaslandırma və biznes-planlar hazırlanır, eyni zamanda, fermerlərin seçimi üzrə müvafiq fəaliyyətlər icra olunur.

# Azərbaycan Prezidenti İlham Əliyev Milli Olimpiya Komitəsinin 25 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib



Sentyabrın 29-da Heydər Əliyev Mərkəzində Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) yaranmasının 25 illik yubileyi münasibətilə təntənəli mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan dövlətinin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə nitq söyləmişdir.

O, demişdir: -

Bu gün biz Milli Olimpiya Komitəsinin 25 illiyini qeyd edirik. Bugünkü mərasimdə Azərbaycanın idman ictimaiyyətinin nümayəndələri, xarici qonaqlar iştirak edirlər. Fürsətdən istifadə edərək, bugünkü mərasimdə iştirak etmək üçün ölkəmizə gəlmiş Avropa Olimpiya Komitələrinin nümayəndələrini xüsusi salamlayıram. Azərbaycan Avropa Olimpiya Komitələrinin fəal üzvüdür. Bugünkü mərasimdə Avropa Olimpiya Komitələrinin rəhbərliyinin iştirakı əlbəttə ki, bizi çox sevindirir. Onu da qeyd etməliyəm ki, bu gün Bakıda Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin toplantısı, eyni zamanda, Milli Olimpiya komitələrinin forumu keçirilir.

Azərbaycanda Olimpiya Hərəkatı və idman uğurla, sürətlə inkişaf edir. Azərbaycan dünyada idman dövləti kimi tanınır. İdman Azərbaycanda dövlət siyasətidir. Dövlət bu istiqamətdə öz siyasətini apararkən idmanın hərtərəfli inkişafına nail ola bilmişdir. Qeyd etməliyəm ki, bütün müvafiq qurumlar, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, idman cəmiyyətləri, federasiyalar, klublar bir məqsədi güdür ki, Azərbaycanda idman daha da inkişaf etsin, idmanın kütləviliyi daha da geniş vüsət alsın və idmançılarımız bizi beynəlxalq yarışlarda tez-tez sevindirsinlər. Bax, bu birgə fəaliyyət nəticəsində və idmana cavabdehlik daşıyan bütün qurumlar arasındakı koordinasiya sayəsində Azərbaycan beynəlxalq aləmdə idman sahəsində çox böyük uğurlara imza atmışdır.

Biz əlbəttə ki, ilk növbədə, idmanla məşğul olmaq üçün şərait yaratmalı idik və bu istiqamətdə dövlət investisiyaları hesabına Azərbaycanda bir çox müasir Olimpiya idman qurğuları tikilib istifadəyə verilmişdir. Təkcə onu demək kifayətdir ki, Azərbaycanın bölgələrində 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi tikilmişdir. Bakıda isə bu gün ən müasir idman infrastrukturu mövcuddur. Əvvəlki illərdə tikilmiş idman obyektləri əsaslı təmir olundu və eyni zamanda, son illərdə bir neçə böyük stadion, idman zalı inşa edildi. Onların arasında, əlbəttə ki, təxminən 70 min tamaşaçı yeri olan Olimpiya Stadionunu qeyd etməliyəm. Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Eyni zamanda, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. Bir sözlə, son illər ərzində həm bölgələrdə, həm Bakıda idmanın inkişafına, infrastruktur layihələrinə qoyulan vəsait öz nəticəsini verməkdədir.

Biz əlbəttə ki, idmanda əldə edilmiş nailiyyətlərlə fərəhlənirik. Çünki bizim idmançılarımız ölkəmizi beynəlxalq arenalarda ləyaqətlə təmsil edirlər. Azərbaycan ilk dəfə olaraq müstəqil dövlət kimi 1996-cı ildə Yay Olimpiya Oyunlarında iştirak etmişdir və o vaxt cəmi 1 medal qazanmışdır. Ondan 20 il sonra Rio Yay Olimpiya Oyunlarında isə Azərbaycan idmançıları 18 medal qazanmışlar və medalların sayına görə komanda hesabında Azərbaycan 14-cü yerə layiq görülmüşdür. Bax, bu tərəqqi idmanın inkişafını göstərən ən gözəl amildir. Çünki Olimpiadadan-Olimpiadaya medallarımızın sayı artırdı və 18 medal qazanmaq doğrudan da çox böyük tarixi nailiyyətdir.

Azərbaycan idmançıları, eyni zamanda, Avropa və dünya çempionatlarında böyük uğurlar qazanırlar. Bu il bizim iki idmançımız sərbəst güləş və boks üzrə üçüncü dəfə dünya çempionu olub. Bu da tarixi nailiyyətdir. Bir sözlə, bu gün Azərbaycan o ölkələrdəndir ki, onun çox güclü idman potensialı var. Həm infrastruktur, həm idmançıların hazırlığı, gənc idmançıların hazırlanması - biz bu məsələyə kompleks şəkildə yanaşırıq. Bir daha qeyd etmək istəyirəm ki, bütün müvafiq qurumlar bir nöqtəyə vurur, bir məqsədə qulluq edir və məhz buna görə də biz idmanda bu nailiyyətləri əldə edə bilmişik.

Biz beynəlxalq arenada - Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitələri çərçivəsində də fəal iştirak edirik. Bizim beynəlxalq federasiyalarla da çox yaxşı əlaqələrimiz var. Təsadüfi deyil ki, Azərbaycanda demək olar ildə bir neçə dəfə mötəbər beynəlxalq yarış keçirilir. Bu günlərdə Bakı şəhərində qadınlar arasında voleybol üzrə Avropa çempionatı keçirilir. Azərbaycanda beynəlxalq yarışların keçirilməsi də artıq bir ənənəyə çevrilib. Biz buna öyrəşmişik və bu da əlbəttə ki, həm ölkəmizin potensialını göstərir, həm də beynəlxalq federasiyaların bizə olan inamını əks etdirir. Bu idman tədbirləri arasında mötəbər yarışları bu gün xüsusilə qeyd etmək istərdim. Bakıda iki dəfə Formula-1 yarışı keçirilmişdir. Bu, tamaşaçı auditoriyasına görə Yay Olimpiya Oyunlarından sonra yəqin ki, ikinci idman yarışıdır. Bu yarışların auditoriyası 500 milyon insandır. Bakıda iki dəfə keçirilmiş "Formula-1" yarışı artıq "Formula-1" yarışları arasında özünəlayiq yer tuta bilib. Çünki bu, şəhər yarışıdır və tamaşaçılar üçün, televiziya ilə bu yarışı izləyənlər üçün həm yarış daha maraqlı keçir, eyni zamanda, şəhərimizin gözəlliyi yarım milyard insana təqdim olunur.

Azərbaycanda dünya, Avropa çempionatları keçirilir. Əlbəttə ki, mən 2015-ci ildə keçirilmiş birinci Avropa Oyunlarını xüsusi qeyd etməliyəm. Bu qərarı qəbul edən Avropa Olimpiya Komitələrinin rəhbərlərinə və üzvlərinə bir daha minnətdarlığımı bildirmək istəyirəm. O vaxt bu qərarın qəbul edilməsi bizə imkan verdi ki, bu Oyunları keçirək, öz imkanlarımızı göstərək və beləliklə, Avropa Oyunlarına start verək. Bilirsiniz ki, hazırlıq üçün bizim cəmi 2 il yarım vaxtımız var idi və deyə bilərəm ki, bu Oyunlar qısa müddət ərzində Yay Olimpiya Oyunlarının səviyyəsində keçirilmişdir. Onu da qeyd etməliyəm ki, Azərbaycan bu Oyunlarda çox yaxşı nəticələr göstərmişdir. Bu gözəl təcrübəni əldə edərək, Azərbaycan bu il IV İslam Həmrəyliyi Oyunlarını uğurla keçirib. Bu Oyunlarda 54 ölkə, 3 mindən bir qədər çox idmançı iştirak etmişdir. Bu Oyunlar da çox böyük müvəffəqiyyətlə keçdi. Həm Avropa Oyunlarında, həm də İslam Həmrəyliyi Oyunlarında iştirak etmiş idmançılar və qonaqlar əminəm ki, öz vətənlərinə ən xoş təəssüratlarla qayıtmışlar.

Bizim gələcəkdə idman uğurlarımız daha da çox olacaq. Bütün idmançıları əldə edilmiş qələbələr münasibətilə təbrik edirəm və yeni qələbələr, uğurlar arzulayıram.

* * * * *

Janez KOÇİJANÇİÇ: "Cənab Prezident, xoş sözlərinizə görə çox sağ olun. Siz Avropa Olimpiya Hərəkatı üçün ən çox işlər görən dövlət başçısısınız".

Sentyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin 25 illik yubiley tədbirində, Bakıda keçirilən Avropa Olimpiya Komitələri İcraiyyə Komitəsinin iclasında, MDB, Baltikyanı ölkələr və Gürcüstan Milli Olimpiya komitələrinin regional forumunda iştirak etmək üçün ölkəmizə səfərə gələn Avropa Olimpiya Komitələrinin, beynəlxalq idman təşkilatlarının və xarici Milli Olimpiya komitələrinin rəhbərlərindən ibarət nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV görüşdə çıxış edərək demişdir:

-Mən Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılmasının 25-ci ildönümünü bizimlə birlikdə qeyd etmək üçün Azərbaycana təşrif buyurmuş Avropa Olimpiya ailəsindən belə böyük nümayəndə heyətini görməyə çox şadam. İcraiyyə Komitəsinin yenidən Bakıda bir araya gəlməsi məni məmnun edir. Mən uzun illər bundan əvvəl Avropa Olimpiya Komitələrinin İcraiyyə Komitəsinin iclasının burada keçirildiyini xatırlayıram. Bu, təxminən 20 il bundan əvvəl olub. Bu, Azərbaycanın Avropa idman tədbirlərində fəal iştiraka sadiq olduğunu nümayiş etdirir. Yəqin, siz də bilirsiniz ki, hazırda Azərbaycan mühüm idman tədbirinə - qadınlar arasında voleybol üzrə Avropa çempionatına ev sahibliyi edir.

Azərbaycanda bundan da çox Avropa miqyaslı idman tədbirləri keçiriləcək. Bakının iki ildən sonra futbol üzrə Avropa liqasının final oyununa ev sahibliyi etməsi bizdə qürur hissi oyadır. Əlbəttə ki, birlikdə qeyd etdiyimiz Avropa Oyunları da bizim üçün böyük bir məsuliyyət idi. Bu, həm də Avropa Olimpiya Hərəkatının inkişafı üçün vacib idi. Çünki Oyunlar ilk dəfə idi təşkil olunurdu və hesab edirəm ki, yüksək səviyyədə təşkil olundu.

İdman nailiyyətlərimizə gəldikdə, Azərbaycanda idmanın inkişaf etməsi bizi çox sevindirir, yaxşı nəticələr var. Bu il 2 atletimiz 3-cü dəfə dünya çempionu adına layiq görülüb. Gənc nəsil də daha fəaldır və idmanla məşğul olmağa çox həvəslidir. Çünki Azərbaycanda idmançı olmaq indi çox nüfuzlu peşədir. Əlbəttə ki, bu günlərdə keçirilən idman tədbirləri və sizin ölkəmizə səfəriniz idmanın inkişafını daha da stimullaşdırır.

Sonra Avropa Olimpiya Komitələrinin icraçı prezidenti Janez KOÇİJANÇİÇ və Avropa Voleybol Konfederasiyasının prezidenti Aleksandar BORİÇİÇ çıxış etmişlər.

Azərbaycanın millisi Almaniya yığmasını məğlub edərək Avropa çempionatının yarımfinalına yüksəlib

Sentyabrın 29-da qadın voleybolçular arasında Avropa çempionatının dörddəbir final mərhələsində Almaniya yığması üzərində inamlı qələbə qazanan Azərbaycan milli komandası yarımfinala yüksəlib.

Milli Gimnastika Arenasında keçirilən qarşılaşmada qadın voleybolçularımız 3:0 hesabı ilə qələbə qazanıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan və Almaniya voleybolçularının oyununa baxıblar.

# Azərbaycan xalqının fəxri, görkəmli alim Lütfi Zadə vətən torpağına qovuşdu




Sentyabrın 29-da dünya şöhrətli azərbaycanlı alim Lütfi Zadənin cənazəsi Bakıya gətirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda cənazənin qarşılanmasında elm xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

ABŞ-ın Kaliforniya Universitetinin professoru, Yumşaq Hesablamalar üzrə Berkli Təşəbbüsünün rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü, Amerikadakı Azərbaycan diaspor təşkilatlarının fəxri sədri Lütfi Zadə 1921-ci il fevralın 4-də Bakı şəhərində anadan olub. O, ibtidai təhsilini burada 16 saylı məktəbdə alıb, on yaşında ikən ailəsi ilə birlikdə İrana köçərək 1930-cu illərdə Tehranda təhsilinə davam edib, 1944-cü ildə isə müvəffəqiyyətlə Tehran Universitetini elektrik mühəndisliyi ixtisası üzrə bitirib. Lütfi Zadə 1944–1959-cu illər arasında Amerika Birləşmiş Ştatlarının Massaçusets Texnologiya İnstitutunda və Kolumbiya Universitetində magistr və doktorluq elmi dərəcələrini alıb, 1959-cu ildən Kaliforniya ştatındakı Berkli Universitetinin ömürlük professoru seçilib, 1963-cü ildən isə bu ali məktəbin elektrik mühəndisliyi və kompüter elmləri kafedrasına rəhbərlik edib və Yumşaq Hesablamalar üzrə Berkli Təşəbbüsünün rəhbəri kimi fəaliyyət göstərib.

Süni intellekt sahəsində qeyri-səlis məntiq nəzəriyyəsinin banisi professor Lütfi Zadə dünya elmi fikrinə layiqli töhfələr vermiş görkəmli şəxsiyyətlərdəndir. Adı elm tarixinin köklü dəyişikliklər yaratmış böyük simaları ilə bir sırada çəkilən alim mühüm kəşflərdən sayılan fundamental nəzəriyyələr irəli sürüb. Yeni texnologiyalara güclü təsir göstərməklə həmin nəzəriyyələr diskret və rəqəmli idarəetmə, informasiya və kommunikasiya sistemlərinin əsaslarının yaradılmasını təmin edib, müasir idarəetmə elminin bünövrəsini qoyub. Bir sıra araşdırma mərkəzləri idarəetmə sistemlərini Lütfi Zadənin nəzəriyyələri əsasında tədqiq edir və layihələndirir.

Alimin ardıcıl tədqiqatları nəticəsində irəli sürdüyü qeyri-səlis məntiq nəzəriyyəsi müstəsna əhəmiyyətə malik olub, müxtəlif elm sahələrinin müasir mərhələdə inkişafında dərin iz buraxıb və yeni yanaşma üsulları meydana gətirib. İnformasiya texnologiyalarında ciddi dəyişikliklərə yol açan və sənaye proseslərinin idarə olunmasında uğurla istifadə edilən nəzəriyyə nəhəng elektron şirkətlərində özünün geniş tətbiqini tapıb. Hazırda sənayenin bəzi sahələri məhz qeyri-səlis məntiq nəzəriyyəsinə əsaslanmaqdadır. Dünyanın aparıcı şirkətləri Lütfi Zadənin nəzəriyyələrindən bəhrələnməklə yüksək iqtisadi səmərəliliyə nail olublar.

Bir çox ölkələrin akademiyalarının, o cümlədən ABŞ Milli Mühəndislik Akademiyasının və Rusiya Təbiət Elmləri Akademiyasının üzvü seçilən professor Lütfi Zadə mötəbər beynəlxalq cəmiyyətlərin, qurumların və fondların mükafatlarına layiq görülüb, onlarla ölkənin nüfuzlu universitetinin fəxri doktoru adını qazanıb. Lütfi Zadə elm və texnologiyaların inkişafına verdiyi dəyərli töhfələrinə, eləcə də mədəniyyətlərarası dialoqun qurulmasında misilsiz xidmətlərinə görə müstəqil Azərbaycan Respublikasının ali mükafatlarından "Dostluq" ordeni ilə təltif edilib.

Lütfi Zadə 2017-ci il sentyabrın 6-da ömrünün 97-ci ilində vəfat edib.

Azərbaycan xalqının fəxri, qeyri-səlis məntiq nəzəriyyəsi ilə dünya elminə misilsiz töhfə vermiş görkəmli alim Lütfi Zadə sentyabrın 29-da son mənzilə yola salınıb.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) binasında Lütfi Zadə ilə vida mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vida mərasimində iştirak edib.

Mərasimdə çıxış edən AMEA-nın prezidenti, akademik Akif Əlizadə görkəmli alimin həyat və yaradıcılığından danışıb: "Lütfi Zadə ömrünü ABŞ-la bağlasa da, doğma Vətənini unutmayıb. Azərbaycanın uğurları onu həmişə sevindirib. O, 1965-ci ildə Bakıya gələrkən alimlərlə görüşüb, tövsiyələrini verib. Bundan sonra Azərbaycan elmində də qeyri-səlis məntiq istiqamətləri inkişaf edib. Alim sonuncu dəfə Bakıya 2008-ci ildə Azərbaycan dövlətinin dəvəti ilə gəlmişdi. Lütfi Zadə gündən-günə firavanlaşan, gözəlləşən Vətəni ilə fəxr edir, onun uğurlarına qəlbən sevinirdi.

O, böyük elmi məktəb yaradıb. Azərbaycan dövləti Lütfi Zadənin fəaliyyətini yüksək qiymətləndirib. Dövlətimizin başçısı İlham Əliyevin sərəncamına əsasən görkəmli alim "Dostluq" ordeni ilə təltif edilib. Lütfi Zadə, həmçinin 2016-cı ildə AMEA-nın ümumi yığıncağında Nizami Gəncəvi adına qızıl medala layiq görülüb", – deyə A.Əlizadə bildirib.

AMEA prezidenti vurğulayıb ki, görkəmli alimin vəfatı dünya elmi ictimaiyyətini, bütün Azərbaycan xalqını kədərləndirir.

Mərasimdə təhsil naziri Mikayıl Cabbarov, AMEA-nın həqiqi üzvü, AMEA İdarəetmə Sistemləri İnstitutunun direktoru Telman Əliyev, AMEA-nın akademik katibi, akademiyanın İnformasiya Texnologiyaları İnstitutunun direktoru Rasim Əliquliyev, AMEA-nın müxbir üzvü, Riyaziyyat və Mexanika İnstitutunun direktoru Misir Mərdanov, ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta, Azərbaycanın Xalq artisti, professor Cənnət Səlimova çıxış etmişlər.

Görkəmli alim Lütfi Zadə birinci Fəxri xiyabanda torpağa tapşırılıb.

# «AtaSığorta»: "Öncül olmaq istəyən hər bir şirkət korporativ mədəniyyətinin formalaşmasında maraqlı olmalıdır"



Müsahibimiz "AtaSığorta" Açıq Səhmdar Cəmiyyətinin İnsan Resursları (HR) Şöbəsinin müdiri Nuranə Əzizovadır. Nuranə xanımla söhbətimizə səmimi notlar üzərində başladıq. O, iş həyatına necə başlaması, "AtaSığorta" ASC-nin iş prosesi barədə bizə geniş məlumat verdi.

Nuranə Əzizova ilə olan müsahibəni oxuculara təqdim edirik:

## *Nuranə Əzizova: "Postneft erasında mütəxəssislərdən daha çox kreativlik, təşəbbüslülük, iradə, əzmkarlıq və daim təkmilləşmə tələb olunur"*

**- Nuranə xanım, HR sahəsində karyeranız necə başladı?**

- 2002-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunda işə başlamışam. 2015-ci ildə isə karyerama "AtaSığorta" ASC ilə davam etmək qərarına gəldim. Rəhbərliyin qərarı ilə 2016-cı ildən HR meneceri kimi fəaliyyətə başlamışam. Məqsədim öz fəaliyyətimlə insan resursları üzrə beynəlxalq standartlara və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq şəkildə fəaliyyət göstərmək və şirkətimizin strateji hədəflərini dəstəkləməklə insan resurslarının idarəedilməsi sistemində yer tutmaqdır.

**- Bu baxımdan HR – insan resursları amilinin cəmiyyətimizin, ölkə iqtisadiyyatının inkişafında rolunu necə xarakterizə edərdiniz?**

- Hazırda dünyada və eləcə də Azərbaycanda postneft erası başlayıb. Yəni dövlətlər, şirkətlər ənənəvi enerji resurslarını daha az israf etmək və yeni texnologiyaların tətbiqi ilə inkişaf etməyə üstünlük verirlər. Bu isə əmək bazarında yeni dövrün tələblərinə uyğun, səriştəli, peşəkar və bacarıqlı kadrların öz yerini tutmasını şərtləndirir. Çünki postneft erasında mütəxəssislərdən, işçilərdən daha çox kreativlik, təşəbbüslülük, iradə, əzmkarlıq və daim təkmilləşmə tələb olunur. Hazırda rəqabətqabiliyyətli vərdiş və bacarıqlara sahib olmaqla əmək bazarında öz yerini tutmaq və yeni texnologiyaların tətbiqindən, son nailiyyətlərindən maksimum səviyyədə istifadəni bacarmaq zəruridir. Bir misal çəkim. Məsələn, hazırda BMT-nin konkret savadlılıq kriteriyaları var: birincisi, yazıb-oxumaq, ikincisi, dünyada geniş yayılmış hər hansı bir xarici dili yaxşı səviyyədə bilmək, üçüncüsü, kompüter texnologiya və proqramlarından istifadəni bacarmaq, dördüncüsü, sosial hüquqları bilmək və ən nəhayət, beşincisi, bütün əvvəlki dörd kriteriya üzrə bilgiləri digərlərinə ötürməyi bacarmaq. Bütün bu kriteriyalara maliksənsə, beynəlxalq standartlar baxımından tam savadlı sayılırsan. Bunların üzərinə konkret hər hansı bir sahədə mütəxəssis kimi formalaşmağı gələndə savadlı kadrdan söhbət açmaq olar. Bu qeyd edilənlər də savadlı və hazırlıqlı insan resurslarının iqtisadiyyatın inkişafında, hər hansı ölkənin irəli getməsində rolunun nə qədər böyük olduğunu göstərir. Təcrübə göstərir ki, dünyada məhz bu cür hazırlıqlı insan resurslarına sahib ölkələr liderlik edirlər.

**- "AtaSığorta" ASC-yə işçilər işə necə götürülür?**

- Hər bir imicini qoruyan və işçilərin hazırlıq səviyyəsi, əmək əmsalına ciddi fikir verən şirkət kimi, "AtaSığorta"da da işçi ehtiyatının cəlb edilməsi adətən, kadr tələblərinə uyğun olan şəxslərin cəlb edilməsi; şirkətin daxili elanları (e-poçt vasitəsilə); internet səhifəmizdə iş üçün müraciət anketi - CV yerləşdirməklə və daxil olan CV-lər üzrə, işədüzəltmə agentlikləri və karyera mərkəzləri vasitəsilə; yazılı və onlayn kütləvi informasiya vasitələri ilə; uyğun profilli ali məktəblərlə sıx əməkdaşlıq yaratmaq və ali məktəbi yüksək göstəricilərlə bitirən məzunları şirkətə təcrübəçi kimi cəlb etməklə həyata keçirilir.

- **"AtaSığorta" ASC-nin korporativ mədəniyyəti haqqında nə deyə bilərsiniz?**

- Hər bir şirkətdə korporativ mədəniyyətin yüksək səviyyədə olması çox vacibdir. Korporativ mədəniyyət – təcrübədə özünü doğrultmuş və və şirkətin əməkdaşları arasında bölünən dəyər, simvol, inanc, davranış forması sistemidir. İmicini qoruyan və öncül olmaq istəyən hər bir şirkət korporativ mədəniyyətinin formalaşmasında maraqlı olmalıdır. Bu baxımdan AtaSığorta olaraq biz də korporativ mədəniyyətin inkişaf etdirilməsini daim nəzarətdə saxlayırıq.

Bunun üçün cəmiyyətin korporativ kodeksini illik olaraq yeniləyib hazırlayırıq. Tamlıq, inam, etibar, hörmət, yüksək standartların müəyyən olunması, ixtisaslaşma və əməkdaşlıq, daimi proqres və çeviklik, pozitiv kollektivin mövcudluğu əsas prinsiplərimizdəndir. İşin daha da effektiv olması üçün analiz-sintez, sistemli yanaşmanı və mərhələli inkişaf taktikasını dərk edən, düşünülmüş və məsuliyyətli qərarların verilməsi üçün daim inkişafda olan professsional işçi kollektivinin olması uğurun əsasıdır.

**- Şirkətinizin ştatı üzrə işçilərinizin sayı nə qədərdir?**

- "AtaSığorta" ASC 2004-cü ildən etibarən tam lisenziyalı sığorta fəaliyyətini həyata keçirir. Hal-hazırda şirkətimizdə 300-ə yaxın əməkdaş çalışmaqdadır. Onların, demək olar ki, 99%-i Azərbaycan vətəndaşıdır. Cəmiyyətimizin xidmət şəbəkəsinə 11 filial, 14 nümayəndəlik və 60-dan çox satış ofisi daxildir.

**- "AtaSığorta" ASC-də dediyiniz məsələlər üzrə əməkdaşlar arasında hansı təlimlər həyata keçirilir?**

- "AtaSığorta" ASC-nin təlim planlarına əsaslanaraq təlim bazarının təhlili və təlim mənbələrinin müəyyən edilməsi istiqamətində "AtaSığorta" ASC-nin İnsan Resursları Şöbəsi tərərfindən davamlı işlər aparılır.

İlin əvvəlində HR olaraq büdcəyə uyğun İllik Treninq Planını hazırlayıb təsdiq üçün İdarə Heyətinə təqdim edirik. Təlim şirkətləri ilə müzakirələrdən sonra şirkətlərdən təkliflər alınır və gələn təkliflər təlim kursunun mündəricatı, istifadə edilən texniki avadanlığın keçirilən təlim kursuna uyğunluğu və effektivliyi, təlim kursunda izlənəcək istiqamət və təlim kursunun dəyərləri kimi meyarlar əsasında qiymətləndirilir. Əldə olunan məlumat müvafiq struktur rəhbərləri ilə nəzərdən keçirildikdən sonra uyğun gələnlər Təlim Planına daxil edilir. Təlimlərə göndərilmiş əməkdaşlar həmin təlimi öz departamentlərində (lazım gəldikdə əlaqəli departamentlərdə) prezentasiya formasında təqdim edirlər. Bununla da təlimlərə münasibətdə məsuliyyət və diqqət artır, bir təlimdən bütün departamentin yararlanması, işçilərin təcrübə mübadiləsi təmin edilir, onların prezentasiya təqdimetmə vərdişi təkmilləşir, korporativ mühit, komanda ruhu formalaşır və yeniliklərin tətbiqi stimullaşdırılır.

**- "AtaSığorta" ASC işçiləri necə motivasiya etdirir?**

- "AtaSığorta" ASC-də motivasiya sistemi iki formada həyata keçirilir: Maddi motivasiya və qeyri-maddi motivasiya. İşçilərin əməyinin ədalətli, müvafiq ödənilməsini və mükafatlandırılmasını təmin etmək, struktur bölmə rəhbərləri - direktorlarla sıx əməkdaşlıq formasında şirkətin strateji hədəflərinə nail olmaq istiqamətində hər bir işçidə icra etdiyi işlərə maraq, həvəs yaratmaq, sistemli olaraq işçilərin davamlı təlimləndirilməsi və inkişaf etdirilməsini təmin etmək, az təcrübəli işçilərin daha təcrübəli, nümunəvi işçilərin bilik və təcrübələrindən faydalanmalarını və işi daha effektiv formada icra etmələrini, sürətli inkişaflarının sistemli qaydada təşkili, şirkət daxilindən vəzifə yüksəlişlərini və müvafiq mükafatlandırmaları həyata keçiririk. İşçilərarası münasibətləri və komanda ruhunu gücləndirmək məqsədi ilə müvafiq tədbirlər (bayramlar, yubileylər, "teambuilding" və s.) keçirilir.

Qoyulmuş hədəfləri əldə etməkdə işçiləri dəstəkləmək, işçiləri ruhdan salan amilləri, vəziyyətləri müəyyən etmək və aradan götürmək, işçilərarası (fərdi və ya qrup halında) münaqişələri vaxtında operativ həll etmək kimi motivasiya olunurlar.

**- İşin keyfiyyətinin təhlili necə aparılır?**

- İşin keyfiyyət təhlilinin aparılması üçün adətən, planlar hazırlanır, məlumatlar qeydə alınır, uçotu aparılır, iş nəticələri audit olunur, təhlil aparılır v s. Ümumiyyətlə, şirkətlərdə bu fəaliyyətlərin icrası üçün müxtəlif struktur bölmələri olur və bununla bağlı vəzifələr yaradılır. Biz də şirkət olaraq bu fəaliyyətləri həyata keçiririk. İş analizi prosesində əsas analiz olunacaq mövzular vəzifə tələbləri, tələb olunan təhsil, təcrübə, sertifikatlar, bacarıqlar, vəzifəyə bağlı fəaliyyətlərin düzgün təyini və izahı, fəaliyyətin icrası ilə bağlı məsuliyyət və səlahiyyətlər, fəaliyyətin çətinliyi, əhəmiyyəti və məsuliyyəti, vaxt norması, işin icra olunma müddəti kimi təsnifatlandırılır.

# PAŞA Bank 2017-ci ilin ilk 6 ayının maliyyə nəticələrini açıqladı

"PAŞA Bank 476,854 min AZN təşkil edən məcmu kapitalına görə ən iri kommersiya bankı mövqeyini qoruyub saxlamışdır. Eyni zamanda, bank 2017-ci ilin ilk 6 ayı ərzində 58,636 min AZN dividend ödəmişdir". Bu sözləri PAŞA Bankın 2017-ci ilin ilk 6 ayının maliyyə nəticələrinə həsr olunmuş mətbuat konfransında Bankın İdarə Heyətinin üzvü, Baş Maliyyə İnzibatçısı Xəyalə Nağıyeva qeyd edib. O, bildirib ki, Bank keçən ilin ilk 6 ayı ilə müqayisədə xalis mənfəətini iki dəfə artırmışdır. Bankın xalis mənfəəti 30 iyun 2017-ci il tarixinə bitən 6 ay üzrə 50,324 min AZN olmuşdur ki, bu məbləğ keçən ilin ilk 6 ayı üçün 24,416 min AZN təşkil etmişdir. 30 iyun 2017-ci il tarixinə faiz gəlirləri 132,453 min AZN səviyyəsinə çatmışdır. 30 iyun 2016-cı il tarixinə bu məbləğ 65,372 min AZN olmuşdur.

Qeyri-faiz gəlirləri 30 iyun 2017-ci il tarixinə 33,805 min AZN təşkil etmişdir ki, bu da ümumi əməliyyat gəlirlərində 31% pay deməkdir. Bankın ümumi əməliyyat gəlirləri keçən illə müqayisədə 25% artaraq 107,753 min AZN səviyyəsinə çatmışdır. Qeyri-faiz gəlirlərinin əsas hissəsini dilinq əməliyyatlarından gəlir təşkil edir – 26,523 min AZN və ya 78%. Bu o deməkdir ki, dilinqdən gəlirlərin ümumi əməliyyat gəlirlərindəki payı 24%-dir. Xalis haqq və komissiya gəlirləri 5,037 min AZN təşkil edir ki, bu da qeyri-faiz gəlirlərinin 15%-i, ümumi əməliyyat gəlirlərinin isə 5%-i deməkdir.

30 iyun 2017-ci il tarixində bitən 6 ay üzrə Bankın ümumi əməliyyat xərcləri keçən ilin eyni dövrü ilə müqayisədə 8% artaraq 42,629 min AZN təşkil etmişdir. 30 iyun 2017-ci il tarixində bitən 6 ay üçün xərcin gəlirə nisbəti əmsalı 40%-dək enmişdir. 2016-cı ilin eyni dövrü üçün həmin məbləğ müvafiq olaraq 45% təşkil etmişdir.

Öz aktivlər portfelinin şaxələndirilməsi ilə bağlı qəbul etdiyi strateji qərar nəticəsində Bank müştərilərinə təklif etdiyi xidmətlərin düzgün balansını saxlamağa nail olmuşdur. 30 iyun 2017-ci il tarixinə PAŞA Bankın məcmu aktivləri 3,614,019 min AZN təşkil etmişdir ki, bu da 2016-cı ilin müvafiq tarixində qeydə alınmış 3,289,845 min AZN ilə müqayisədə 10% artım deməkdir.

30 iyun 2017-ci il tarixinə Bankın pul vəsaitləri və onların ekvivalentləri 40,2%, müştərilərə verilmiş kreditlər 32,9%, kredit təşkilatlarından alınacaq məbləğlər 18,5%, investisiya qiymətli kağızları 4,6%, digər aktivlər 3,7% təşkil etmişdir.

Bankın məcmu kreditləri 30 iyun 2017-ci il tarixinə 1,259,945 min AZN məbləğinə çatmışdır. Bu, 2016-cı ilin sonu ilə müqayisədə 8% artım deməkdir.

30 iyun 2017-ci il tarixinə kredit portfelinin effketiv ehtiyat dərəcəsi 5,5% olmuşdur. Bu faiz dərəcəsi 31 dekabr 2016-cı il tarixinə olan 5,3% göstərici ilə müqayisədə stabil qalmışdır. Kredit portfelinin keyfiyyəti Bankın əsas hədəflərindən biridir və ciddi nəzarət altındadır.

PAŞA Bank müştəri bazasını da artırmaqda davam edir. 30 iyun 2017-ci il tarixinə müştəri hesabları ilin sonu ilə müqayisədə 15% artaraq 2,702,754 min AZN səviyyəsinə çatmışdır. Nəticədə, məcmu kreditlərin müştəri hesablarına nisbəti əmsalı 2016-cı ilin sonunda müşahidə olunan 50% göstərici ilə müqayisədə azalaraq 47% olmuşdur.

Bankın 30 iyun 2017-ci il tarixinə məcmu kapitalının adekvatlıq əmsalı 15%, likvidlik əmsalı 112% təşkil etmişdir.

PAŞA Bank müştərilərə rəqabət qabiliyyətli və mütərəqqi məhsullar təklif etməklə korporativ və KOS sektorda payını daha da artırmaq və Azərbaycan bazarında öz lider mövqeyini qoruyub saxlamaq üzərində çalışır.

# Avtomobillər ilə bağlı icbari sığortada 20 faizdən çox artım var

Cari ilin sentyabr ayı ərzində İcbari Sığorta Bürosunun informasiya sistemində avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (AVSMMİS) üzrə 86 186 elektron sığorta müqaviləsi qeydiyyata alınmışdır.

İcbari Sığorta Bürosundan daxil olmuş məlumata görə, bunlardan xarici ölkələrdə qeydiyyata alınmış və Azərbaycan Respublikasına tranzit məqsədilə daxil olan avtonəqliyyat vasitələri üzrə bağlanılan müqavilələr olmuşdur.

Hesabat dövründə bağlanılan standart və sərhəd sığorta müqavilələri üzrə sığorta şirkətlərinə daxil olan sığorta haqları 6 834 654 manat təşkil etmişdir.

Ötən ilin eyni dövrü ilə müqayisədə sığorta müqavilələrinin sayında 24% artım, sığorta haqlarının məbləğində isə 21% artım müşahidə edilmişdir.



1 noyabr 2016-cı il tarixindən etibarən avtomobillər üçün icbari sığorta müqavilələrinin kağız şəhadətnamə blanklarında deyil, elektron sənəd formasında bağlanılmasına başlanılmışdır. 1 noyabr tarixinədək kağız daşıyıcıda bağlanılan avtomobillərin icbari sığorta müqavilələri təminat müddətlərinin bitdiyi tarixədək qüvvədədir.

# Azercell-in növbəti eksklüziv ofisi indi Bakının Q.Qarayev prospektində

Abunəçilərinin operativ və keyfiyyətli xidmətlərdən istifadəsini təmin etmək üçün ölkə boyu yeni konsepsiyalı Eksklüziv ofislərinin sayını artıran Azercell daha bir mağazasının açılışını edib. Bakı şəhəri, Nizami rayonu, Qara Qarayev prospekti, ev 30/42 ünvanında istifadəyə verilən Eksklüziv ofis 121 $m^2$ ərazidə abunəçilərə xidmət göstərəcək. Ən müasir avadanlıqla təchiz olunan bu ofis unikal Nordic konsepsiyasına uyğun olaraq qurulub.



Mağazanın xüsusi özəlliyi ofisdə açıq sahələrin mövcudluğu, servislərin və seçim imkanlarının rahatlığıdır. Burada abunəçilər istədiyi məhsulu tədqiq və müqayisə edə, sınaqdan keçirə bilər. Düzgün seçim etməkdə, xidmətləri qoşmaqda və digər məsələlərdə isə müştərilərə peşəkar satıcılar dəstək olacaqlar. Bu ofisdə Müştəri Xidmətləri mərkəzlərində təqdim olunan bütün əməliyyatlar icra olunur (izahlı qaimə və addan-ada əməliyyatları istisna olmaqla digər). Burada abunəçilər, həmçinin mobil texnologiyaları dəstəkləyən müxtəlif aksessuarlar, cihazlar əldə edə, eyni zamanda, mobil telefonları kredit və nağd şəkildə ala bilərlər.

Qeyd edək ki, ilk fəaliyyəti günündə Azercell Telekom şirkətinin prezidenti Vahid Mürsəliyevlə yanaşı, həm də Telia şirkətinin Avrasiya regionu üzrə prezidenti Emil Nilson da mağazaya baş çəkərək, müştərilərin rahatlığına yönələn bu təşəbbüsü yüksək qiymətləndirmişlər.

Yeni ofislərinin açılmasında Azercell şirkətinin əsas məqsədi 4.5 milyonluq abunəçi ailəsinə yüksək səviyyəli xidmət göstərməkdir. Azercell abunəçiləri bu ofislərə müraciət edərək, yaranan problemləri həll edə, arzuladıqları xidmətlərə qoşula və onları maraqlandıran suallara cavab ala bilərlər.

# İslam həmrəyliyi sülh və əməkdaşlığa çağırışdır

***Sentyabrın 29-da Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun, Xaçmaz Rayon İcra Hakimiyyətinin, «Azərbaycan» qəzetinin və Qafqaz Müsəlmanları İdarəsinin birgə təşkilatçılığı ilə Xaçmaz şəhərində «İslam Həmrəyliyi: sülh və əməkdaşlığa çağırış» mövzusunda konfrans keçirilib.***

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Xaçmaz rayon icra hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev, Milli Məclisin deputatı, «Azərbaycan» qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Hacı Salman Musayev, Milli Məclisin deputatı Eldəniz Səlimov, eləcə də rayon ziyalıları, dini və milli icmaların nümayəndələri, yerli və respublika miqyaslı qəzetlərin baş redaktorları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Xaçmaz rayon icra hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev qonaqları salamlayaraq, «İslam həmrəyliyi ili»nə həsr olunmuş birgə konfransın əhəmiyyətindən söz açıb. Ş.Xanbabayev ötən ilin respublikamızda «Multikulturalizm ili» kimi tarixiləşdiyini xatırladaraq, bunun davamı olaraq 2017-ci ilin «İslam Həmrəyliyi ili» elan edilməsinin mühüm siyasi əhəmiyyətə malik olduğunu bildirib.

Xaçmazda hər zaman tolerant mühitin hökm sürdüyünü deyən Ş.Xanbabayev burada 22 azsaylı xalqın nümayəndələrinin dinc şəraitdə yaşadıqlarını, rayonda etnik zəmində hər hansı insidentin baş vermədiyini diqqətə çatdırıb: "Azərbaycanda və eyni zamanda, rayonumuz Xaçmazda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, bizim rayonumuzun böyük sərvətidir. Xaçmazda hal-hazırda 88 məscid var. 2006-cı ildə rayonda fəaliyyət göstərmiş Təzə Şəhər Məscidinin köhnə binası sökülərək, ərazisi genişləndirilmiş və yerində müasir memarlıq üslubuna uyğun yeni binanın inşası həyata keçirilmişdir. Bu, xüsusi bir haldır ki, ölkədə mövcud olan provaslav kilsələrindən biri məhz bizim rayonumuzda yerləşir".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında bildirib ki, hazırda İslam dünyasının üzləşdiyi problemlərin və gərginliklərin əsasında məhz həmrəyliyin olmaması dayanır. Komitə sədri müsəlman dövlətlərinin əhali sayına görə dünyada ikinci yerdə qərarlaşdıqlarını, planetin sakinlərinin 25 faizinin İslam dininə sitayiş etdiklərini diqqətə çatdırıb. M.Qurbanlı dünyanın quru ərazisinin 19, neft-qaz ehtiyatlarının 60 faizinin müsəlman ölkələrinin payına düşdüyünü bildirib. Komitə sədri bu və digər təbii üstünlüklərə baxmayaraq, hazırda fəal münaqişə ocaqlarının 80, terror aktlarının isə 75 faizinin müsəlman ölkələrinin ərazisində baş verdiyini təəssüflə vurğulayıb.

Müsəlman ölkələrinin dünya iqtisadiyyatındakı xüsusi çəkisinin cəmi 5-6 faiz təşkil etdiyini vurğulayan M.Qurbanlı əlavə edib ki, yaranmış vəziyyətdə çıxış yolu yalnız elm və təhsilə dərindən yiyələnmək, yeni texnologiyaları mənimsəmək, məzhəbçiliyə yox deməkdir.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Hacı Salman Musayev İslam həmrəyliyinin möhkəmlənməsinə sanballı töhfələr verən Azərbaycanın müsəlman dünyasında böyük nüfuza malik olduğunu bildirib.

"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov son onillikdə İslam dünyasının ciddi problemlərlə üzləşdiyini, Yaxın Şərq regionunda və ərəb ölkələrində ciddi münaqişələrin baş qaldırdığını bildirib. İslamın terrorla əlaqələndirilməsinin yolverilməz olduğunu deyən B.Sadıqov əlavə edib ki, hazırda terrordan ən çox əziyyət çəkən müsəlman dövlətləridir. O, həmçinin bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev 2017-ci ili "İslam həmrəyliyi ili" elan etməklə həm də müxtəlif xalqların, o cümlədən müsəlmanların müharibələrdən əziyyət, fəlakətlərə düçar edildiyi indiki dövrdə dünyaya mesaj verib.



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli Xaçmazda multikultural və tolerant mühitin hər zaman yüksək səviyyədə olduğunu, burada müxtəlif azsaylı xalqların dinc şəraitdə yaşadıqlarını diqqətə çatdırıb.

Çıxışını davam etdirən Vüqar Səfərli bildirib ki, "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyası"nda əksini tapmış 19 əsas istiqamətdən biri də "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi"dir. Fondun 2016-cı il və 2017-ci ilin birinci yarısında keçirdiyi fərdi jurnalist yazıları müsabiqələrində həmin istiqamət üzrə 50-dək yazı təqdim edilib, 30 nəfər jurnalist qalib olaraq mükafatlandırılıb.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Eldəniz Səlimov bildirib ki, multikulturalizmin Azərbaycan modelinin tətbiqi qlobal təhdidlərə rasional və səmərəli cavabdır. Milli Məclisin deputatı həmçinin qeyd edib ki, Azərbaycanda dövlət siyasəti kimi elan olunan multikulturalizmin təbliği və bu istiqamətdə maarifləndirmə işlərinin aparılması xalqımızın yüzillər boyu formalaşmış mənəvi mədəniyyət xəzinəsinin gələcək nəsillərə çatdırılmasına xidmət edir.

Tədbiri yekunlaşdıran Xaçmaz rayon icra hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev belə konfransların təşkilinin təbliğatı və siyasi baxımdan əhəmiyyətini xüsusi vurğulayıb. Rayon icra hakimiyyətinin başçısı ölkə rəhbərliyinin yürütdüyü uğurlu siyasətin nəticəsi olaraq Azərbaycanın bundan sonra da dünyada sülh və həmrəylik təşəbbüskarlarından biri kimi çıxış edəcəyini vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.**

# «Hədəfimiz məhsullarımızı dünya bazarında tanıtmaqdır»

> ***"Növbəti illərdə ixracyönümlü müəssisələrin yaradılmasına daha böyük diqqət göstərilməlidir. Əslində, Azərbaycanda bundan sonra da yaradılacaq müəssisələr hər iki məqsədi güdməlidir - həm daxili tələbat ödənilməli, həm də ixrac imkanları olmalıdır. Buna nail olmaq üçün dövlət orqanları ardıcıl fəaliyyət göstərirlər".***
>
> *İlham Əliyev,*
> *Azərbaycan Respublikasının Prezidenti*



Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən sahələrdən olan sənayenin inkişaf etdirilməsi məqsədilə son dövrlər ölkədə rəqabətqabiliyyətli müasir istehsal sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının daha da yaxşılaşdırılması istiqamətində çoxsaylı layihələrin icrası davam etdirilmiş, stimullaşdırıcı tədbirlər həyata keçirilmişdir. Bunlardan ən əsası isə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarıdır.

Ölkə iqtisadiyyatının inkişafı baxımından mühüm əhəmiyyət daşıyan bu proqramların Naxçıvan Muxtar Respublikasını da əhatə etməsi həyata keçirilən genişmiqyaslı iqtisadi proseslərin tərkib hissəsidir. Sənaye sahələrinin yaradılması prosesində muxtar respublikanın da fəal iştirak etməsi ilk növbədə əhalinin məşğulluğunun təmin olunmasına geniş imkanlar açır. Belə müəssisələrin yaradılmasında məqsəd həmçinin Naxçıvan Muxtar Respublikasında innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahə üzrə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı yüksəlişini təmin etməkdir.

Hazırda ölkəmizdə qeyri-neft sənayesinin inkişaf etdirilməsi məqsədilə iri sənaye müəssisəsi yaradılır, mövcud müəssisələrin inkişafına diqqət daha da artırılır. Bu baxımdan "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın da qarşıdakı illərdə sənayenin inkişaf istiqamətlərini müəyyənləşdirməklə, inkişaf konsepsiyasında qarşıya qoyulmuş məqsədlərə nail olunmasında xüsusi rolu vardır. Sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, enerjidən səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi və s. kimi məqsədləri rəhbər tutan Dövlət Proqramında bu məqsədlərin həyata keçirilməsi üçün sənayenin rəqabət qabiliyyətinin artırılması və potensialının gücləndirilməsi, mövcud istehsal sahələrinin inkişaf etdirilməsi və yeni sahələrin yaradılması, sənayenin regional strukturunun təkmilləşdirilməsi və infrastruktur təminatının yaxşılaşdırılması, sənaye zonalarının və klasterlərinin təşkili, sənayenin kadr potensialının və elmi təminatının gücləndirilməsi, sənaye müəssisələrinin fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın təkmilləşdirilməsi kimi məsələlər prioritet olaraq müəyyənləşdirilmişdir.

"Gəmiqaya Holding"in tərkibində fəaliyyət göstərən Naxçıvan İnşaat Materialları İstehsalı Kompleksi də Naxçıvan Muxtar Respublikasının qeyri-neft sektorunun inkişafı baxımından mühüm əhəmiyyət kəsb edən sənaye müəssisələrindəndir. Müəssisənin fəaliyyəti ilə daha yaxından tanış olmaq üçün Naxçıvan **Tikinti Materialları İstehsalı Kompleksinin direktoru Yaşar Həsənzadə** ilə söhbət etdik:

**- Yaşar müəllim, əvvəlcə Naxçıvan İnşaat Materialları İstehsalı Kompleksi haqqında məlumat verərdiniz.**

- Regionun ən böyük holdinqlərindən biri olan "Gəmiqaya holding"in tərkibində yer alan Naxçıvan İnşaat Materialları İstehsalı Kompleksi Naxçıvan Muxtar Respublikasının Kəngərli Rayonunun Böyükdüz ərazisində 9 hektar sahədə 2016-cı ildə 8 növ məhsul istehsalı ilə öz fəaliyyətinə başlamışdır. Müəssisədə iki növ 9,5 mm və 12,5 mm alçıpan, 3 növ adi gips, astar suvaq gipsi, üzlük suvaq gipsi, iki növ sönmüş və sönməmiş əhəng və muxtəlif ölçülərdə məsaməli beton istehsalı aparılır. Qeyd edim ki, bu kompleksdə istehsal olunan alçıpanın gündəlik istehsal həcmi 6600, gips növlərinin istehsal həcmi 100 ton, əhəng növlərinin istehsal həcmi 100 ton, məsaməli betonun istehsal həcmi isə 500-dür.

**- Naxçıvan İnşaat Materialları İstehsalı Kompleksinin eyni tipli istehsal müəssisələrindən əsas fərqi nədən ibarətdir?**

- Xüsusilə, qeyd etmək istərdim ki, aparılan analizlər nəticəsində məlum olmuşdur ki, bu gün Naxçıvan İnşaat Materialları İstehsalı Kompleksində istehsal olunan əhəng növləri nəinki Azərbaycanda, həmçinin dünya üzrə istehsal olunan ən keyfiyyətli əhənglərdən hesab edilir. İstehsal olunan əhəngimizin saflıq dərəcəsi də dünyada istifadə olunan ən saf əhənglərdən sayılır. Kompleksimizdə istehsal olunan sönməmiş əhəng sənayedən inşaat sahələrinə qədər bir çox yerdə istifadə edilərək, öz keyfiyyətini büruzə verir. Qeyd edim ki, hal-hazırda müəssisəmizdə istehsal olunan məsaməli betonun da əsas komponentlərindən biri məhz elə sönməmiş əhəngdir. Məsaməli beton istehsalında istifadə edilən sönməmiş əhəng və regionun ən keyfiyyətli sementlərindən hesab edilən Naxçıvan Sement sayəsində istehsal olunan məsaməli beton da keyfiyyətinə görə özünəməxsus yer tutur. Aşağı çəkisi və uzunömürlülüyü olması sayəsində məsaməli beton müasir binaların tikilişində daha çox üstünlüyə malik olması ilə də seçilir. Məsaməli beton bloklar digər tikinti materiallarından öz keyfiyyətinə görə əhəmiyyətli dərəcədə fərqlənir. Bu bloklar ekoloji baxımdan da təmiz və toksik olmayan materialdır. Məsaməli beton bloklarının istilik izolyasiya etmək xüsusiyyəti adi betonla müqayisədə 6-10 dəfə çoxdur. Bundan əlavə, məsaməli beton səsi izolyasiya etmək xüsusiyyətinə də malikdir. Digər ekoloji göstərici isə sınmış, qüsuru olan bloklardan ikinci dəfə istifadə etmək imkanıdır. Məsaməli betonun əsas üstünlüklərindən biri də yüksək səviyyədə enerjiyə qənaət etməsidir.

**- Müəssisənin fəaliyyət prosesində qarşıya qoyduğu əsas hədəflər hansılardır?**

- Fəaliyyətə başladığı ilk gündən müəssisənin ən böyük məqsədi minimum enerji istehlakı ilə maksimum məhsuldarlıq və keyfiyyətin əldə edilməsi olmuşdur. Həmçinin, bizim müəssisəmizin ən böyük məqsədlərindən biri istehsal edilən gips və gips karton lövhələrini Naxçıvan Sementində olduğu kimi, dünyanın və Avropanın ən keyfiyyətli məshulları kimi brendləşdirməkdir. Bununla yanaşı, yaxın gələcəkdə su və nəm müqaviməti tələb edən yaşıl karton lövhə istehsalını da həyata keçirməyi planlaşdırırıq. Əlavə olaraq, qonşu ölkələrə də ixracat həcmini genişləndirərək, bütün zavodların istehsal həcmini artırmağı düşünürük.

**- İstehsal Kompleksində əsas olaraq hansı ölkələrin təcrübəsindən istifadə olunur?**

- Fəaliyyətə başladığı gündən kompleks daxilində Çin Xalq Respublikasından gələn mütəxəssislərlə birgə, Türkiyə və Avropadan olan bir sıra mütəxəssislərin təcrübəsindən istifadə edildi. Hal-hazırda kompleksimizdə aparıcı mühəndis heyəti muxtar respublikamızın yüksək təhsilli kadrlarıdır. Əlbəttə, istehsal preseslərinin optimallaşdırılması, enerji istehlakının azaldılması və məhsul keyfiyyətinin maksimum ölçüdə yüksək tutulması məqsədi ilə müəssisəmizdə xüsusi vəzifələndirilən mühəndislər dünyada baş verən yeniliklərin tətbiqi ilə bağlı araşdırmalar da aparır.

**- Hansı ölkələrlə əməkdaşlıq edilir və bu əməkdaşlıq hansı səviyyədədir?**

-Hal-hazırda ən böyük əməkdaşlıq Gürcüstan Respublikası ilə aparılır. Xatırladaq ki, son dövrdə Gürcüstanın paytaxtında tikilən müasir tipli binaların əksəriyyəti Naxçıvan İnşaat Materialları Kompleksində istehsal edilən məsaməli betonla həyata keçirilmişdir. Amma, təbii ki, bu, bizim üçün kifayətedici göstərici deyil və buna görə də bizim məqsədimiz başda Türkiyə Respublikası olmaqla bütün qonşu ölkələrlə maksimum səviyyədə əməkdaşlıq qurmaq və məhsullarımızı bu ölkələrin bazarlarında tanıtmaqdır. Bu məqsədin həyata keçirilməsi üçün də ciddi səviyyədə hazırlıqlar davam edir.

**- Naxçıvan İnşaat Materialları İstehsalı Kompleksinin başqa ölkə və regionlarda filialları varmı?**

- Hazırda kompleksin Gürcüstanın paytaxtı Tiflis şəhərində, Türkiyənin İğdır şəhərində və respublikamızın paytaxtı Bakı şəhərində filialları mövcuddur. Lakin gələcək illərdə ölkəmizin digər regionlarında, başda Gəncə şəhəri olmaqla filiallar açmağı düşünürük. Bu sayədə məhsullarımızın rahatlıqla bazarlara çıxarılması təmin ediləcək.

**- Bəs, Yaşar müəllim, müəssisəyə kadr seçimində əsas olaraq hansı amillərə üstünlük verilir?**

- Kompleksimizə işçilərin seçimi ilk CV-lərin qəbulu vasitəsilə həyata keçirilir. Biz burada həmin CV-ləri yoxlayırıq. Burada diqqət edilən əsas amillər müraciət edən nümayəndələrin təhsili, təhsil aldığı ölkə, universitet, bildiyi dillər və bir sıra bilik və bacarıqlarıdır. Qeyd edilən üstünlükləri təşkil edən CV nümayəndələrini zavodumuza dəvət edirik və burada rəhbərlik tərəfindən təyin edilən heyət vasitəsilə ilkin olaraq tələbələrə uyğun şifahi sorğular aparılır və yenə bunların arasından da üstünlük təşkil edənlər seçilir və həmin seçilən nümayəndələrə yazılı üsul ilə imtahan prosesi aparılır. Bu imtahandan da müvəffəqiyyətli olanlar vakant yerlərə qəbul edilir. Qeyd edək ki, qəbul edilən yeni kadrlarımız iki aylıq sınaq müddəti keçir və bu iki ay müddətində təcrübəli mütəxəssislərimizin yanında bir sıra təlimlərdən sonra həmin kadrların bir daha bilik, bacarıqları və işə olan məsuliyyəti yoxlanılır. Əgər göstərilən tələblərə cavab verilərsə, öz işlərinə davam edirlər, əks təqdirdə sınaq müddətindən keçmədiyi üçün müqavilələrinə xitam verilir.

**Təşəkkürlər, Yaşar müəllim.**

**Müsahibəni apardı:**
**Mətanət Hüseynova**

# AKTUAL MÖVZU



*Azərbaycanın dünyada artan reytinqi və bu reytinqin arxasında dayanan islahatlar, açıqlanan hesabatların ölkənin iqtisadi inkişafında önəmli yeri və rolu barədə AzTV-nin "GÜNÜN NƏBZİ" verilişindən.*

*(28.09.2017)*

**Aparıcı Rüfət Həmzəyev:** - Dünya İqtisadi Forumunun "2017-2018-ci illər üzrə Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı"nda Azərbaycanın reytinqdə iki pillə irəliliyərək 37-ci yerdən 35-ci yerə layiq görülməsi bu gün daha çox müzakirə olunan, kifayət qədər aktual mövzulardan biridir. Ona görə də bu gün burada ətraflı fikir mübadiləsi aparacağıq, xüsusən də, Azərbaycanın Dünya İqtisadi Forumunun deyil, İqtisadi Təşkilatların hesabatlarında artan reytinqi və bu reytinqin arxasında dayanan islahatlar, eləcə də açıqlanan hesabatların ölkənin iqtisadi inkişafında önəmli yeri və rolu barədə öz fikirlərimizi bölüşəcəyik.

***Qonaqlarımız Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin sədri, akademik Ziyad Səmədzadə, iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı və Dövlət Statistika Komitəsinin sədr müavini Yusif Yusifovdur.***

- Ziyad müəllim, istərdim ilk sualı sizə ünvanlayaq. Tam əminliklə demək olar ki, bu, Azərbaycan üçün uğurlu bir göstəricidir. Biz faktiki olaraq 35-ci yerə yüksəlməklə böyük iyirmiliyə daxil olan ölkələrin yarısını geridə qoymuşuq. Yəni, bura aiddir İtaliya, Rusiya, İndoneziya, Hindistan, Türkiyə, Cənubi Afrika Respublikası və s. Ümumiyyətlə, bu hesabat nədir, bu hesabatın qlobal çəkisi, qlobal nüfuzu və ölkələr arasında əhəmiyyətini necə xarakterizə etmək olar?

**Ziyad Səmədzadə:** - Mən Azərbaycan xalqını, Azərbaycan dövlətini və Azərbaycan hökumətini təbrik edirəm. Bu, xalqımızın, müstəqil Azərbaycanımızın böyük nailiyyətidir. Davos İqtisadi Forumu dünyada ən məşhur, sanballı qurumlardan biridir. 1971-ci ildə yaradılmışdır, yəni 45 ildən artıqdır ki, fəaliyyət göstərir və hər il keçirilən bu forumlarda dünyanın aparıcı ölkələrinin rəhbərləri, siyasi xadimləri, iqtisadi xadimləri öz fəaliyyətləri barədə məlumat verirlər. Davos İqtisadi Forumunun qiymətləndirmələri 140-a yaxın dövlətin məlumatları əsasında aparılır və burada ölkələrin reytinqini müəyyən etmək üçün 100-dən çox göstəricidən istifadə olunur. Bu göstəriciləri müəyyən edərkən dünyanın bütün ölkələrində sorğu aparılır, bu sorğularda 15 minə yaxın biznesmen, iş adamları iştirak edir və bütün alınan nəticələr ümumiləşdirilir və ölkələr müvafiq göstəricilərinə görə qiymətləndirilir.

Burada bütövlükdə dünya miqyasında aparılan qiymətləndirilmələrdən söhbət gedir. Ən aşağısı 114-dən çox göstərici qiymətləndirilir. Bu göstəricilərin içərisində də 12 qrup formalaşdırılır. Makroiqtisadi göstəricilər: investisiya məsələsi, xarici borclanma, əhalinin sağlamlığı, demoqrafik inkişaf, əmək bazarı, investisiya bazarı və s. müxtəlif indikatorlar ölçülür və qiymətləndirilir. Bu gün Azərbaycan MDB məkanında ən yüksək pilləyə qalxmış ölkə hesab olunur. Nəyin hesabına? - Azərbaycanda aparılan iqtisadi islahatların sistemliliyi hesabına. Hər bir göstərici təhlil olunur, eyni zamanda, təhlil prosesində bu göstəricilərin səviyyəsi müqayisə edilir: ölkəyə gələn investisiyaların miqdarı, onların əhatə dairəsi, qanunvericilik bazası, investisiya üçün yaradılmış şərait. Mən bu materialları kifayət qədər təhlil etdim və bir azərbaycanlı kimi sevinirəm ki, dünyanın 140-a qədər ölkəsi arasında aparılan sorğularda, müqayisəli təhlillərdə Azərbaycan 37-ci yerdən 35-ci yerə qalxıb. Bu nəticə o deməkdir ki, Azərbaycan beynəlxalq aləmdə öz nüfuzunu artırıb və bundan sonra da artıracaqdır. Bu bizə imkan verir ki, o göstəricilərin təhlilini bir daha aparaq və bu təhlil prosesində imkanlarımızı daha da genişləndirək. Bu yaxınlarda Azərbaycan yeni Neft kontraktını imzaladı:



bu, dünya əhəmiyyətli bir layihədir. Əgər Azərbaycana inam olmasaydı, Azərbaycanda makroiqtisadi sabitlik olmasaydı, Azərbaycanda yoxsulluqla mübarizə aparılmasaydı, əmək bazarı təkmilləşməsəydi, Azərbaycana yenidən bu qədər xarici investisiya qoyulmazdı. Bu, o deməkdir ki, Azərbaycanda dinamik inkişaf var, keyfiyyətli islahatlar aparılır. Bütövlükdə, bu siyasət Azərbaycan dövlətinin iqtisadi siyasətinin ana xəttidir.

**Aparıcı:** - Ziyad müəllim, biz indikatorlara baxanda görürük ki, burada institutlardan tutmuş infrastruktura qədər bir çox, o cümlədən səhiyyə, təhsil və təlim, əmtəə bazarının səmərəliliyi, əmək bazarı və s., demək olar ki, hər hansı bir dövlətin inkişafını şərtləndirən bütün sahələr var.

**Ziyad Səmədzadə:** - Əmək bazarının səmərəliliyinə görə biz dünyada 17-ci yeri tutmuşuq. Bu, nəyin hesabına oldu? Əvvəla, cənab Prezident Azərbaycanda "Məşğulluq strategiyası"na imza atdı. Bu gün Azərbaycan əhalisinin demoqrafik inkişafı məsələsinə xüsusi fikir verilir. Azərbaycanda əmək proseslərində şəffaflığın təmin edilməsi diqqət mərkəzindədir. Biz bu yaxınlarda, daha doğrusu, keçən yay sessiyasında böyük bir qanun - İşsizlikdən sığortalanma haqqında qanunu qəbul etdik. Bu görülən işlərə görə Azərbaycanda əmək bazarı prosesləri beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Dünya ölkələri içərisində, bir daha deyirəm ki, bu göstəriciyə görə 17-ci yeri tutmaq, hesab edirəm, çox böyük nailiyyətdir.

**Aparıcı:** - Sevinc xanım, bildiyiniz kimi, bu hesabatdan irəli gələrək, ölkədə konkret hədəflər qoyulub: iqtisadiyyatın diversifkasiyası, sahibkarlıq mühitinin daha da inkişaf etdirilməsi, investisiya mühitinin daha da yüksək səviyyədə formalaşması və qarşıya qoyulan bu kimi hədəflər, onun nəticələri iqtisadiyyatımıza necə təsir göstərəcək, nə verəcək?

**Sevinc Həsənova:** - Mən, ilk növbədə, qeyd etmək istərdim ki, bu hesabat artıq bu günə kimi görülmüş işlərin qiymətləndirilməsidir. Azərbaycanda davamlı olaraq son illərdə mərhələli şəkildə sahibkarlıq sahəsində biznes mühitinin daha da təkmilləşdirilməsi, sahibkarların dəstəklənməsi üzrə məqsədyönlü siyasətin nəticəsi məhz belə hesabatlarda qiymətləndirilir. Ziyad müəllim çox gözəl dedi, Qlobal Rəqabətqabiliyyətlilik Hesabatı dünyada tanınmış və qəbul olunan hesabatlardandır. Belə hesabatlarda Azərbaycanın ildən-ilə irəli getməsi Azərbaycanda aparılan iqtisadi islahatların qiymətləndirilməsi üçün böyük əhəmiyyətə malikdir. Azərbaycanda aparılan bütün məqsədyönlü tədbirlərin nəticəsi də dünya miqyasında müqayisə edildikdə çox açıq şəkildə görünür. Mən bildirmək istərdim ki, 2005-ci ildən Azərbaycan üzrə hesablanan bu indeks üzrə biz hər il irəliləyərək 35-ci pilləyə yüksəlmişik. 2005-ci ildə biz 137 ölkə sırasında 69-cu yerdəydik. 2005-ci ildən hər il davamlı olaraq aparılan uğurlu iqtisadi islahatlar - biznes mühitinin yaxşılaşdırılmasını, insan kapitalı indeksini xüsusi qeyd etməliyik - bu indeks, Ziyad müəllimin dediyi kimi, digər sahəvi indekslərdən fərqli olaraq çox kompleks indeksdir və ölkənin iqtisad inkişafı ilə əlaqədardır. Eyni zamanda, orada insan kapitalına verilən önəm, insan kapitalının inkişafı da qiymətləndirilir. Əlbəttə ki, bu göstəricilər, o cümlədən 12 sahə üzrə Azərbaycanın reytinqləri həmin sahələr istiqamətində bizim gələcəkdə atacağımız addımları bir daha bizə göstərir ki, digər ölkələrlə müqayisədə biz harada daha irəli gedə bilərik. Biz bu 12 sahədən cari ildə 9 sahə üzrə irəli addım ata bilmişik. Biznesin mükəmməlləşdirilməsi üzrə 20 pillə, əmtəə bazarının səmərəliliyi üzrə 19 pillə, infrastruktur üzrə 4 pillə, əmək bazarının səmərəliliyi üzrə 9 pillə irəliləmişik. Səhiyyə və ibtidai təhsil üzrə 1 pillə irəli gedə bilmişik. Maliyyə bazarlarının inkişafı Azərbaycan iqtisadiyyatı üçün çox vacib məsələlərdən biridir. Biznesin maliyyəyə çıxış imkanlarının genişləndirilməsi Azərbaycanda qəbul olunmuş yol xəritələrində də əsas məsələlərdən, vəzifələrdən biridir. Bu sahədə biz 18 pillə irəli getmişik.

**Aparıcı:** - Bu, sənəddir və xaricdə hər hansı bir təşkilatlar, Azərbaycana investisiya yatırmaq istəyən firmalar məhz həmin sənəd əsasında addım atacaqlar.

**Sevinc Həsənova:**- Bəli, bu Azərbaycanın beynəlxalq səviyyədə müsbət imicinin formalaşdırılmasına, eyni zamanda, etibarlı və müstəqil siyasət yürüdən ölkə olduğunun sübutudur və investorlara çox müsbət bir siqnal olan hesabatdır. Son illərdə biz biznes mühitinin ötən illərdə olduğu kimi, inkişaf etdirilməsi üçün daha sürətli addımlar atdıq və bu addımlar da öz nəticəsini bu hesabatlarda göstərdi. Bilirsiniz ki, 2015-ci ildən iki il müddətində yoxlamalar dayandı, lisenziyaların sayı iki dəfə azaldıldı, lisenziyaların alınması üçün xərclərin çəkilməsi iki dəfədən çox azaldı.



**Aparıcı:** - Vüsal müəllim, tam əminliklə söyləmək olar ki, faktiki olaraq qısa bir müddət ərzində bu, görülən işlərin real nəticəsidir. Biz bu iki pillədən danışırıq. Lakin bu iki pillənin arxasında böyük işlər var, böyük islahatlar var. İstərdik görülən işlər barədə sizin mövqeyinizi və fikirlərinizi bilək.

**Vüsal Qasımlı**:- Əvvəla onu deyim ki, qlobal rəqabətlilik indeksində olimpə yaxınlaşdıqca atılan hər bir addım özündən əvvəlki addımdan daha çətin olur, çünki daha güclü rəqiblərlə, daha inkişaf etmiş rəqabətqabiliyyətli iqtisadiyyatlarla rəqabət aparmaq məcburiyyətində qalırıq. Bir qədər konkretləşdirək - biz 9 indikator üzrə irəlliləyiş əldə etmişik. Yəni, bilirsiniz ki, neft gəlirləri azalır, biz isə rəqabətqabiliyyətli iqtisadiyyatı artırırıq. 2016-cı ilin iyul ayının 13-də cənab Prezident Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması və beynəlxalq reytinqlərdə vəziyyətimizin gücləndirilməsi ilə bağlı müvafiq sərəncam imzaladı. Sərəncam imzalandıqdan sonra dərhal müvafiq hökumət komissiyası təşkil edildi və tədbirlər planı qəbul olundu. Hər bir indikator üzrə reytinqi daha da yaxşılaşdırmaq üçün konkret işlərin görülməsi müəyyənləşdirildi: hansı qanunvericilik qəbul edilməlidir, necə implementasiya edilməlidir. Eyni zamanda, cavabdeh dövlət qurumları və "end layn" (son yol) müəyyənləşdirildi. Qəbul olunmuş bu qısa müddət ərzində həyata keçirilən işlər öz nəticəsini verdi. Mən bir qədər də konkretləşdirmək istəyirəm. Məsələn, Sevinc xanım qeyd etdi ki, biznes mürəkkəbliyində iki faktor üzrə biz sürətli irəliləyiş əldə etmişik. Son bir il ərzində bunlardan biri klaster inkişafıdır. Bu, nədir? Azərbaycanda bu qədər sənaye parkları, texnoparklar, aqroparklar, sənaye məhəllələri yaradılıb və bu, klasterial inkişafdır. Hər bir yaradılmış klaster özü özlüyündə vergi güzəştləri, infrastrukturun təminatı, kommunikasiyanın təminatı, bazara çıxış və biznes mühiti ilə bağlı bütün şəraitin yaradılmasını əhatə edir. Bunu Dünya İqtisadi Forumu görür. İkincisi, rəqabət üstünlükləri ilə bağlıdır, bax, o biznes mürəkkəbliyi indikatoru altında rəqabət üstünlüyü deyilən bir anlayış var. Biz rəqabət üstünlüyü olan konkret sahələri strateji yol xəritələrində müəyyənləşdirmişik və həmin sahələr üzrə artıq nöqtəvi zərbələr vurulub, nöqtəvi inkişaf baş verir. Yəni, burada müxtəlif sahələr var, yaxud əmtəə bazarının səmərəliliyində kəskin irəliləyiş baş verib. Nədir burada əsas islahat tədbirləri? - Burada kənd təsərrüfatının siyasətinin xərcləri var. Dünya İqtisadi Forumu Azərbaycanda son bir il ərzində təhlillər aparıb: pambıqçılıq, tütünçülük, baramaçılıq, çəltikçilik, sitrus meyvələri, çayçılıq - bütün bu sahələrlə bağlı dövlət proqramı qəbul olunub, dövlət dəstəyi müəyyənləşib. Bunlar həyata keçirilib. Biz ilin ilk 8 ayında ötən illə müqayisədə pambıq lifinin ixracında 8,2 dəfə üstünlüyə malik olmuşuq. Bu, əmtəə bazarının səmərəliliyi altında, məsələn, biznesə başlamaq üzrə dünyada 2-ci yerdəyik. Vaxtla bağlı 6-cı yerdəyik. Ona görə ki, artıq bir pəncərə fəaliyyət göstərir və ilbəil bu bir pəncərənin fəaliyyəti daha da təkmilləşdirilir. Bütövlükdə, Dünya İqtisadi Forumunun dərc etdiyi Qlobal Rəqabətlilik Hesabatında Azərbaycanın belə çətin şəraitdə, belə güclü rəqiblərlə müqayisədə 2 pillə irəliləməsi birbaşa cənab Prezident İlham Əliyevin son bir il ərzində, yəni hesabatı əhatə edən dövr ərzində apardığı kompleks, sistemli, elmi əsaslandırılmış iqtisadi siyasətin nəticəsidir.

**Aparıcı:** - Azərbaycanın neft-qaz sektorunda Azərbaycanla bağlı ortaya çıxan hesabatlar və həmin hesabatlarda Azərbaycanın reytinqinin yüksəlməsi göstərilirdi. Amma indi söhbət qeyri-neft sektorundan gedir. Ümumiyyətlə, atılan hər bir addımın, beynəlxalq təşkilatların Azərbaycanla bağlı ortaya qoyduğu hər bir hesabatın arxasında ölkə iqtisadiyyatının uğurları, konkret statistik göstəricilər dayanır. Artıq bu ilin 8 ayı başa çatıb. Yusif müəllim, istərdik ki, bu 8 ayın iqtisadi göstəricilərinə bir nəzər salaq.

**Yusif Yusifov:-** Tamamilə doğrudur, bilirsiniz ki, son 2 il ərzində dünyada baş verən proseslər, eləcə də neftin qiymətinin aşağı düşməsi fonunda Azərbaycanın neft sektorunda müəyyən azalma müşahidə olundu. Bəlkə də, bu bir imkan oldu ki, iqtisadiyyatımız daha da sağlamlaşdırılsın, qeyri-neft sektorunda, xüsusilə bizim yerli xammaldan potensial olan məhsulların istehsalına daha böyük önəm verilsin və rəqabətqabiliyyətli məhsullarımız genişlənsin, ixrac potensialımız artırılsın. Bütün bunlar imkan verdi ki, Azərbaycan iqtisadiyyatında qeyri-neft sektoru daha da inkişaf etsin. Bəli, 8 ayın yekunları artıq məlumdur və 8 ayın məlumatına görə qeyri-neft sektoru 2,4% artmışdır. Yəni, neft hasilatının və gəlirlərin azalması fonunda qeyri-neft sektorunun 2,4% artması, qeyri-neftin ÜDM-də 62% təşkil etməsi, xüsusilə sənayenin qeyri-neft sahələrində artımının 4%-i keçməsi, emal sənayesinin strukturunda ayrı-ayrı sahələrdə - toxuculuqda, kimya sənayesində, əczaçılıq sferasında, maşınqayırmanın müxtəlif sahələrində istehsalın artması imkan verdi ki, bu sahədə ölkə başçısı tərəfindən aparılan islahatlar daha doğru istiqamətlənsin və əsl qüvvələr səfərbər olunsun. Mən hesabatın strukturu, reytinqin tərtibi ilə bağlı məsələləri qeyd etmək istəyirəm. Burada təsadüf yoxdur. Onu demək lazımdır ki, bu reytinq tərtib olunarkən burada çəkilər müəyyən olunur. Çəkilər tək kəmiyyət göstəricisi deyil, burada yüzlərlə göstərici iştirak edib, hər birinin ayrı-ayrılıqda xüsusi çəkisi var. Həm statistik rəqəmlərlə, həm qeyri-hökumət təşkilatları ilə aparılan sorğularla, vətəndaş cəmiyyətinin üzvləri ilə aparılan sorğuların nəticələri qiymətləndirilir və bütün bunların nəticəsində Azərbaycan 137 ölkə arasında 35-ci yerdə qərarlaşdı. Burada bir məsələ var ki, göstəricilər bir-birilə müqayisə olunanda konkret rəqəm götürülmür. Həm özündən əvvəlki, yəni yüksək yerdə olan ölkələrlə, həm də özündən sonrakı - geridə qalan ölkələrlə müqayisə olunur və hər birində BMT-nin İnsan İnkişafı İindeksi də müəyyən olunur. Buna son dövrlərdə aparılan sənayeləşmənin: sənaye parklarının, məhəllələrinin, zonalarının yaradılması və s. ciddi təsiri oldu. Bir statistikanı maraqlı fakt kimi sizə demək istəyirəm ki, bu gün dünya üzrə sənayenin ÜDM-in həcmində çəkisi 28%-dir, Azərbaycanda bu göstərici 40%-dir. Nəticə etibarı ilə bu sənayeləşmənin təsiridir ki, Azərbaycan reytinqdə öz mövqeyini nəinki qoruyur, əvvəlki illərdə olduğu kimi inkişaf edir. Hesab edirik ki, Dünya Bankının, bir sıra beynəlxalq təşkilatların bu il Azərbaycan iqtisadiyyatı üçün verdiyi proqnozlara ilin sonuna qədər bir daha baxılacaq. Çünki qeyri-neft sektorunun bu formada inkişaf etdirilməsi bizə imkan verəcək ki, yeni stimullar yaransın.

**Aparıcı:** - Hər halda oktyabrda yeni hesabatlar açıqlanacaq. Ziyad müəllim, hesabatın əhəmiyyətinə və onun Azərbaycan iqtisadiyyatına verdiyi faydaya toxunduq, amma qeyd etdiyimiz kimi, 12 indikatordan 9-u üzrə Azərbaycan öz mövqeylərini yaxşılaşdırıb. Məsələn, onlardan biri infrastruktur kateqoriyasıdır. Cənab Prezident bu məsələyə dəfələrlə toxunub və öz tapşırıqlarını verib. Dövlət başçısının qarşıya qoyduğu hədəflərin reallaşdırılması istiqamətində atılan addımların real nəticələrini artıq biz görürük.

**Ziyad Səmədzadə:**- Heç şübhəsiz ki, Azərbaycan dünya və postsovet ölkələri içərisində infrastruktur layihələrini dinamik şəkildə həyata keçirən ən qabaqcıl respublikalardan biridir. Son illərdə Azərbaycanda çox mühüm infrastruktur layihələri həyata keçirilmişdir. 11 min km yol çəkilib. Bir faktı qeyd edim: nə qədər qəribə də olsa, sovet dövründə Azərbaycanda ildə 60-70 km-dən artıq yol çəkilməyib, 20 ilə 1200 km. Sovet dövründə yolların kifayət qədər olmamasına görə bizim yeyinti sənayemiz böyük miqdarda xammal resurslarının itkisinə məruz qalırdı. Bax, yol tikintisi, enerji təchizatının yaxşılaşması, su probleminin, kanalizasiya problemlərinin həlli, sürətli qazlaşma prosesləri Azərbaycan iqtisadiyyatının keyfiyyətli inkişafı üçün böyük bir baza yaradır. Hətta bizim büdcə xərcləri sürətlə artanda bəzi xarici ekspertlər deyirdi ki, siz büdcə xərclərini çox artırırsınız. Cənab Prezidentin bu məsələ ilə əlaqədar olaraq çox dəqiq bir fikri var: əgər biz valyuta ehtiyatlarımızın, büdcə vəsaitlərimizin bir hissəsini infrastruktur layihələrinə yönəltməsəydik, bu gün bu nailiyyətlərdən danışa bilməzdik. Azərbaycan müstəqil bir dövlətdir, Azərbaycan dövlətinin başçısı cənab Prezident İlham Əliyev əhalinin sağlam inkişafı üçün böyük işlər görür. Rayonlarımızın çoxunda təmiz içməli su yox idi. Qazlaşdırma kifayət qədər deyildi, elektrik enerjisinin verilməsində fasilələr mövcud idi. Görün, biz son 15 il ərzində neçə yeni-yeni elektrik stansiyaları tikdik, regionlara, kəndlərə içməli su çəkildi. Cənab Prezident dəfələrlə deyib ki, Dövlət sahibkarlıq üçün bütün işləri görür, çünki sahibkarlıq fəaliyyətinə başlayan biznesmenin o imkanları yoxdur. Amma dövlət bütün bunları öz üzərinə götürdü. Çünki sahibkarlıq dövlətin iqtisadi strateji resursudur. Bu strateji resursun normal fəaliyyəti üçün dövlət əlində olan bütün imkanları səmərəli istifadə edib. Görün, bizdə sənaye parkları yaratmaqla xarici investorlara nə qədər vergi güzəştləri: ƏDV, mənfəət, torpaq və digər vergilərə 7 il müddətində güzəştlər tətbiq edilir, rezidentlər üçün şərait yaradılır, onlar üçün binalar tikilir. Bütün bunlar bizim büdcə gəlirlərimizə təsir etsə də, Azərbaycan dövləti bunları öz üzərinə götürüb, heç bir dövlətdə bu qədər infrastruktur layihələri qısa zaman kəsiyində həyata keçirilməyib. Azərbaycan qaz ixrac edir, çətinliklər olanda alırıq, elektrik enerjisi ixrac edirik. Mən cənab Prezidentin hələ 2006-cı ildə Xaçmazda elektrik stansiyasının tikintisi ilə əlaqədar çıxışını yenidən oxudum. Orada deyilir ki, bizim ən böyük problemlərimizdən biri rayonlarımızın müntəzəm olaraq elektrik enerjisi ilə təminatını yaxşılaşdırmaqdır. İndi baxın, heç bir rayon bu gün enerji qıtlığından şikayət etmir. Mən kənd yolları ilə bağlı dinamikanı müqayisə edəndə bir azərbaycanlı kimi sevinirəm ki, son 15-16 ildə 11 min km yol salınıb. Amma Sovetlər dövründə Azərbaycan dünyaya 1 milyard yarım ton neft versə də, o zaman bizim heç 5 min km-dən artıq normal yolumuz olmayıb. Azərbaycanın nəqliyyat sistemi 137 ölkə arasında 43-cü yerdə qərarlaşıb. Qısa zaman kəsiyində bu göstərİci daha da yaxşılaşacaq. Kəndlərarası yolların tikintisində yüksək dinamika olacaq.

**Aparıcı:**- Digər vacib məqam kadr potensialıdır. Sevinc xanım, istərdim bu məsələ ilə bağlı sizin fikirlərinizi eşidək. Əmək bazarının səmərəliliyi kateqoriyasında istedadların səmərəlilik istifadəsinə görə Azərbaycan dünyada 14-cü pillədə qərarlaşıb. Bu göstəriciyə görə İsraili, İrlandiyanı, Belçikanı, Avstriyanı, Estoniyanı geridə qoymuşdur.

**Sevinc Həsənova:** - Əmək bazarının səmərəliliyinin qiymətləndirilməsi seçimində müxtəlif indikatorlardan istifadə olunmuşdur və bu kateqoriyada müsbət dinamika göstərən biznesə başlamaq prosedurları Azərbaycanda çox az zaman və çox aşağı xərc tələb etdiyi üçün əsas rol oynamışdır. Hörmətli Ziyad müəllimin qeyd etdiyi kimi, Azərbaycanda əmək bazarında çoxsaylı islahatlar həyata keçirilib, əmək bazarının tənzimlənməsi üçün bu yaxınlarda Milli Məclis tərəfindən qəbul olunan "İşsizlikdən sığorta haqqında qanun"un qəbul olunması aktiv məşğulluğa çox böyük dəstək verəcəkdir və Azərbaycanda olan məşğulluq probleminin həllində də öz rolunu oynayacaqdır. Eyni zamanda, təhsil səviyyəsi və təhsildə olan islahatları qeyd edək. Bilirsiniz ki, təhsilin ortamüddətli inkişaf konsepsiyası proqramları strategiyası qəbul olunmuşdur və onlar da davamlı olaraq mərhələlərlə icra edilir. Təhsil infrastruktur quruculuğu son illər çox sürətlə həyata keçirilmişdir. Təhsildə beynəlxalq təşkilatlar və universitetlərlə yüksək səviyyədə əməkdaşlıq edilir, təhsilin keyfiyyətində də irəlliləyişlər əldə olunmaqdadır. Bu da insan kapitalının artmasına, insan kapitalının keyfiyyətinin yüksəlməsinə öz töhfəsini verəcəkdir. Əlbəttə ki, səhiyyə sahəsində aparılan islahatlar və hal-hazırda hazırlanan və tətbiq prosesində olan İcbari tibbi sığor-

taya keçid də böyük əhəmiyyət kəsb edəcək. Mövcud imkanlar Azərbaycanda səhiyyə sahəsində bu indikator üzrə gələcəkdə irəli addımlamaq imkanları yaradır. İnfrastrukturun keyfiyyət göstəricilərinə görə Azərbaycan 137 ölkə arasında 26-cı yerdədir. Bunlar 100 illərlə öz infrastrukturunu formalaşdırmış G-7–yə daxil olan aparıcı ölkələrdir. Azərbaycan isə qısa zamanda - 10-15 il ərzində infrastruktur quruculuğu həyata keçirdi. Eyni zamanda, bu da digər sahələrin: sənayenin, turizmin inkişafına şərait yaradır və son dövrlərdə bizim müşahidə etdiyimiz turizm axınına şərait yaratmışdır. Biz viza rejimini tənzimləməklə, bir sıra güzəştlər tətbiq etməklə ən qısa müddətdə turizm axınını Azərbaycana təmin etdik. Bunu biz hər gün Bakının küçələrində görürük, regionlarda tikilmiş gözəl, yüksək keyfiyyətli infrastrukturlarla bol olan otellərin dolu olmasında müşahidə edirik və bütün bu otellər, bütün bu yollar nəticədə məhz turizmin, sənayenin, kənd təsərrüfatının, xidmət sahələrinin inkişafına bilavasitə təkan verir və şərait yaradır.



**Aparıcı: -** Cənab Prezidentin bir sözünü qeyd etmək istərdim. O Nazirlər Kabinetinin iclasında bildirmişdi ki, Azərbaycanın mətbəxi həmişə olub, Azərbaycanın adət-ənənəsi, qonaqpərvərliyi həmişə olub. Amma turizm inkişaf edirdimi? - Xeyr. Deməli, turizmi inkişaf etdirən yalnız mətbəx deyil, adət-ənənə deyil, qonaqpərvərlik deyil, infrastruktur, sabitlik, yeni çəkilən yollar və eləcə də həyata keçirilən islahatlardır. Vüsal müəllim, yalnız iki indikatorda geriləmə var, istərdik ki, bunun mahiyyətini açasınız.

**Vüsal Qasımlı:** - 12 indikator 3 qrupda təsnifləşdirilir. Birinci qrup makroiqtisadi mühit də daxil olmaq şərtilə infrastruktur, institutlar, baza qrupudur. İkinci qrupa əmək bazarının keyfiyyəti, maliyyə bazarlarının inkişafı, əmtəə bazarının keyfiyyəti, ali təhsillə bağlı məsələlər daxildir. Bu qrup bütövlükdə səmərəlilik, əsaslı inkişaf qrupu adlanır. Üçüncü qrup isə biznes mürəkkəbliyi və innovasiyadan ibarət olan qrupdur və innovasiya əsaslı inkişaf qrupu adlanır. Məsələ ondadır ki, bizim 2 pillə adlandırdığımız inkişaf çox keyfiyyətli inkişafdır. Çünki biz inkişafa ən çox xüsusi çəki ilə innovasiya əsaslı qrupda nail olmuşuq.Burada biz biznes mürəkkəbliyi üzrə 20 pillə irəli getmişik və 40-cı, innovasiya üzrə isə 33-cü yerdəyik. Bu, Azərbaycanın əvvəllər göstərdiyi inkişaf xəttindən bir balaca fərqlidir, çünki biz artıq əvvəllər olduğu kimi, baza yox, daha çox innovasiya əsaslı inkişafın üzərinə keçmişik. Bunu biz yox, Dünya İqtisadi Forumu deyir. Makroiqtisadi mühit indikatoru: bu, baza qrupuna daxil olan indikatordur. Bunun da altında bir sıra məsələlər, o cümlədən dövlət borcu, büdcənin balansı və digər bu kimi elementlər yatır. Niyə biz burada geriləmə əldə etmişik? - Çünki burada inflyasiya var. Söhbət Azərbaycandakı inflyasiyadan gedir. Dünya İqtisadi Forumu Azərbaycanda 10%-dən yuxarı, yəni ikirəqəmli inflyasiya qeydə alındığına görə biz burada geriləmişik. Ancaq inflyasiyanın səbəbi aydındır: çünki biz yeni bir struktur, yeni fiskal-monetar siyasət ortaya qoyuruq və burada inflyasiyanın ikirəqəmli olmasından qaçmaq, ümumiyyətlə, praktik olaraq mümkün deyil. Birbaşa xarici şokların təsiri altında makroiqtisadi mühit geriləyib. Bunun Azərbaycanın iqtisadi siyasətinə heç bir dəxli yoxdur. Sadəcə son bir il ərzində, yəni hesabatın əhatə etdiyi dövr ərzində görülən işlər var idi. O cümlədən, institutlarla bağlı müəyyən paralelliyin aradan qaldırılması, publik institutların yaradılması, dövlət idarəçiliyinin təkmilləşdirilməsi, eyni zamanda, makroiqtisadi mühit indikatoru altında göstərilən büdcənin balansının düzgün qurulması və bu göstəriciyə görə bizim 43-cü yerdə qiymətləndirilməmiz manatın sabitləşməsinə gətirib çıxardı. Artıq manat sabitləşirsə, deməli, inflyasiyanın təkrəqəmli həddə düşməsi üçün çox gözəl şərait var. Biz bir makroiqtisadi mühit göstəricisində 26 pillə gerilələsək də, bu, baza göstəricisidir.



Əgər bu xarici şoklar olmasaydı və təkcə bir indikatorda 26 pillə geriləməsəydik, biz indi, yəqin ki, ilk 30-luğa daxil olmuşduq. O ki qaldı texnoloji hazırlıq üzrə bir pillə geriləmə olub və o geriləmə ona görə deyil ki, bizim texnoloji hazırlıq səviyyəmiz aşağı düşüb, əksinə, o biri ölkələrdə müəyyən bir sürətli artım baş verib və baza ili ilə müqayisədə Azərbaycan bir pillə geriləyib, amma indeksdə geriləmə yoxdur.

Faktiki olaraq biz indeksdə deyil, pillədə geriləmişik və bu o deməkdir ki, rəqabətqabiliyyətlilik hesabatında son iki pillə irəliləməyimiz çox keyfiyyətli irəliləmədir.

**Ziyad Səmədzadə:** - Mən Vüsal müəllimin dediklərini tam dəstəkləyirəm. Texnoparkların yaranması, yeni istifadəyə verilmiş sənaye məhəllələrinin yaranması, informasiya texnologiya sistemində irəliləyişlər var, təbii ki, bu istiqamətlər təzə-təzə formalaşır. Qlobal risklərin təsiri var, amma iqtisadiyyatımızın inkişaf imkanları böyükdür. Bu indekslər, bu reytinqlər qarşımıza müəyyən məsələlər qoyur. Biz bunlardan, təbii ki, nəticələr çıxarmalıyıq. Bizim bank sektorunda problemlərimiz var. Biz bu problemləri həll etməliyik. Cənab Prezident dəfələrlə deyib ki, bank sektorunda islahatlar aparılmalıdır. Banklarla sahibkarlar arasında əlaqə daha da möhkəmləndirilməlidir. Bəli, mən razıyam, - ikirəqəmli inflyasiya bizim real imkanlarımıza uyğun gəlmir. Vaxtilə dördrəqəmli inflyasiya birrəqəmli inflyasiyaya endi. Əminəm ki, Azərbaycanda bu gün aparılan islahatlar, cənab Prezidentin bu iqtisadi həyatın canlanması ilə əlaqədar gördüyü işlər qısa müddətdə öz nəticəsini verəcək. Cənab Prezidentin banklarla bağlı, pul-kredit siyasəti ilə əlaqədar dediyi tənqidi sözlər müvafiq strukturlar tərəfindən daha da diqqətlə araşdırılmalıdır. Sahibkarların, əhalinin banklara inamı artmalıdır, maliyyə resurslarına çıxış yaxşılaşmalıdır. Biz gələcəkdə bu kimi çətinliklərlə üzləşməmək üçün bunları daha sürətlə həll etməliyik.

**Sevinc Həsənova:** - Mən bununla əlaqədar demək istəyirəm ki, makroiqtisadi sabitliyin təmin olunmasına - Azərbaycanın 2015-ci ildə yaşadığı xarici şoklar nəticəsində iki dəfə devalvasiyaya getməsi nəticəsində yaranmış vəziyyətdən ölkəni çıxarmaqla bağlı ciddi addımlara ehtiyac var idi və cənab Prezident tərəfindən Maliyyə Sabitliyi Şurası yaradılmışdır. Bu şurada maliyyə sabitliyinin təmin olunması ilə əlaqədar çox ciddi addımları əks etdirən tədbirlər planı təsdiq olunmuşdur, cənab Prezidentlə razılaşdırılmışdır. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycanda manatın məzənnəsi sabitləşmişdir. Eyni zamanda, biz düşünürük ki, inflyasiya hələ də yüksək qalsa da, ilin sonuna qədər inflyasiyada artmalar səngiyəcək və növbəti ildə bizim proqnozlarımıza əsasən Azərbaycanda birrəqəmli inflyasiya olacaqdır.

**Yusif Yusifov:** - Əslində geriləmə digər ölkələrin həmin prosesdə daha sürətlə inkişaf etməsi ilə bağlıdır. Biz İKT inkişaf indeksilə bağlı müqayisələr aparanda maraqlı bir fakt ortaya çıxdı. Bilirsiniz ki, Azərbaycanda əsas telefon aparatları ilə təminat yüksək səviyyədədir. Bir



sıra ailələr artıq evlərinə telefon çəkdirmirlər. Amma bir sıra ölkələr var ki, məsələn, Afrika ölkələrində, geridə qalmış digər ölkələrdə telefonlaşma sürətlə gedir. Yəni, doymuş göstərici ilə həmin göstəriciyə çatma arasında fərq olduğuna görə onlar həmin yerlərdə daha sürətlə inkişaf edir. Qeyd etmək istəyirəm ki, texnoloji məsələlərlə, xüsusilə telefon rabitəsi ilə bağlı Azərbaycanın artıq stabilləşmiş və doymuş göstəriciləri var.

**Vüsal Qasımlı:** - Yeri gəlmişkən, bu hesabatlarda bir sıra qlobal trendlər verilib və bu qlobal trendlərlə müqayisədə Azərbaycanın vəziyyəti və Azərbaycanın necə reaksiya verməsi da ortaya çıxır. Məsələn, ən ciddi qlobal trendlərdən biri struktur dəyişikliklərinə ölkələrin uyğunlaşması məsələsidir. Siz təsəvvür edin ki, Azərbaycan qısa bir müddətdə qeyri-ticarət və ticarət sektorunda kəskin struktur dəyişikliyi edib. Biz qeyri-neft sektorunda artım əldə etmişik. Qlobal axın ondan ibarətdir ki, ölkələr struktur dəyişikliyinə adaptasiya oluna bilmir. Bizdə 2016-cı ildə iqtisadi geriləmə olub, 2017-ci il tam adaptasiya ilidir və 2018-ci ildə iqtisadi artım bərpa olunur. Əgər söhbət qeyri-neft sektorundan gedirsə, qeyri-neft sektorunun geriləməsi dayandırılıb. Hesabatda qeyd olunur ki, bütün dünyada ən ciddi problemlərdən biri dağıdıcı bərabərsizlikdir. Məsələn, Yaxın Şərqdə quruluş piramida quruluşudur, yəni piramidanın yuxarısında çox az varlı adamlar var, sonra bir qədər orta təbəqə gəlir, sonra isə çox böyük kütlə, demək olar ki, kasıblardır. Bu, dağıdıcı bərabərsizlik Latın Amerikası ölkələrində geniş yayılıb. Deyək ki, Braziliyada, Argentinada, Azərbaycanda Cini əmsalı, mütləq bərabərsizlik çox aşağıdır, istər desillər, istər kvintellər arasında uyğunluq daha çoxdur. Ona görə sosial sabitlik, iqtisadi sabitlik, daha sonra siyasi sabitlik təmin olunub və siyasi sabitlik olmayanda, ümumiyyətlə, heç bir hesabatdan, heç bir indikatordan, heç bir inkişafdan danışmaq olmaz. Yaxud trendlərdən birində göstərilib ki, dünya hal-hazırda innovativ inkişafla bağlı ciddi problemlərlə üzləşib. Çünki ortada texnoloji geriliklə inkişaf anlayışı var. Yəni, sən bu gün hansısa bir texnoloji nöqtəyə çatmaq istəyirsən və çatanda artıq o, köhnəlir. Azərbaycan innovasiya göstəricisinə görə dünyada 33-cü yerdədir. Bununla bağlı son bir il ərzində inkişaf baş verib. Ona görə ki biz "Strateji yol xəritəsi"-nin monitorinq qiymətləndirilməsində də gördük ki, xəritədə təsbit olunmuş bu innovativ məsələlərin hamısı həyata keçirilir.

**Ziyad Səmədzadə:** - Bu gün burada çox maraqlı söhbət gedir, hamımız qeyri-neft sektoru ÜDM və s.-dən danışırıq, amma cəmiyyət inkişaf etdikcə, Azərbaycan inkişaf etdikcə, ÜDM-in hər faiz artımında keyfiyyəti də dəyişir. On il bundan qabaq 1% artımın arxasında olan sahələrin səviyyəsi indiki kimi deyildi. Bu gün əhalinin keyfiyyətli inkişafına xidmət edən 1% artımın arxasında məişət tullantılarının kompleks emalı, içməli su ilə təminatın yaxşılaşması , sağlamlıqla əlaqədar tədbirlərin həyata keçirilməsi, demoqrafik göstəricilərin yaxşılaşması dayanır. Artıq dünyanın bütün aparıcı alimləri, hətta liderləri də bəyan edirlər ki, cəmiyyət inkişaf etdikcə, sosial tərəqqi artdıqca bu makrosabitlik, makrogöstəricilərin mahiyyəti haqqında da düşünmək lazımdır. ÜDM-in 5 il bundan qabaq 1% artması və ÜDM-in indi 1% artması arasında keyfiyyət baxımından da çox böyük fərq var. Ona görə də qeyri-neft sektoru 2,4% inkişaf edibsə, görün, onun arxasında əvvəllər o siyahıya düşməyən nə qədər keyfiyyət göstəricisi vardır: əhalinin sağlamlığı, uşaq ölümünün azalması, BMT-nin dayanıqlı inkişaf məqsədlərinə nail olunması və s.

**Aparıcı:** - Bir məqama xüsusilə toxunmaq lazımdır. Bizim bu gün danışdığımız Azərbaycanın ayrı-ayrı sahələrinin reytinq göstəriciləri "Strateji yol xəritəsi"nin axırıncı monitorinqi, yəni ilk monitorinq oldu. Faktiki olaraq biz qlobal təşkilatların açıqladığı hesabatdan danışırıq, amma, eyni zamanda, "Strateji yol xəritəsi"nin əsas hədəfləri insan kapitalı, infrastrukturun inkişafı, sahibkarlığın inkişafı və şəffaflıq idi. Eləcə də həmin qlobal təşkilatların açıqladığı hesabatda Azərbaycanın reytinqinin yüksəldilməsi, investisiya mühitinin daha da inkişaf etdirilməsi, yaxud da xarici investorların Azərbaycana cəlb olunması və s. Bax, istərdik ilk monitorinqin nəticələri ilə Vüsal müəllim, hesabatda yer alan göstəricilər arasında bir paralellik aparaq.

**Vüsal Qasımlı:** - Tam komplimentar (üst-üstə düşən, tamamlayıcı) nəticələrdir. Deyək ki, "Strateji yol xəritəsi"ndə telekommunikasiyanın inkişafı ilə əlaqədar məsələlər var. Orada tədbirlərin 50%-indən çoxuna start verilmişdir və yaxud da icra prosesindədir: TASİM layihəsinin texniki əsaslandırılmasının hazırlanması bir sıra qanunvericilik aktlarının qəbul edilməsi, tənzimləyici qurumla əlaqədar təşəbbüslər irəli sürülməsi və digər məsələlər. İnnovasiyalarda biz irəliləmişik. Rəqabətqabiliyyətlilik hesabatlarında göstəricilər tamamilə üst-üstə düşür və yaxud da kiçik-orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı, orada klasterlərin, aqroparkların, sənaye parklarının yaradılması və s. "Strateji yol xəritəsi"nin monitorinqi göstərir ki, bu yaradılır və nəticədə də rəqabətqabiliyyətlilik hesabatında artıq biz biznesin mürəkkəbliyində irəliləmişik. İkinci Dünya müharibəsindən sonra, məsələn, o ölkələr daha sürətlə inkişaf etdi ki, onlar İkinci Dünya müharibəsində daha çox ziyan görmüşdülər, demək olar ki, dağıdılmışdılar. Məsələn, Almaniya artıq Avropanın lideri səviyyəsinə gəldi çatdı. Yaxud da Yaponiya Cənubi-Şərqi Asiya ölkələri arasında lider səviyyəyə çatdı. Çünki Amerikada qurulan zavodlar o dövr üçün artıq köhnə idi, Almaniyada qurulan zavodlar isə o dövr üçün ən son texnologiyalarla təchiz olunmuşdu. Bu gün Azərbaycanda qurulan sənaye müəssisələri ən son texnologiyalarla qurulur. Biz bu gün əczaçılıq sənayesini inkişaf etdiririk, mən sizi inandırıram ki, o sahə indi mövcud olan digər ölkələrdə - Rusiyadakı, İrandakı sənayelərdən daha rəqabətqabiliyyətli olacaq. Çünki biz burada daha son texnologiyanı tətbiq edirik. Nəticə etibarı ilə beynəlxalq reytinqlərdə bizim indikatorlar Azərbaycanın mövqeyini müəyyənləşdirir və biz o indikatorların daha da yaxşılaşdırılması üzrə işləri həyata keçiririk. İndikatorlarda məqsəd "Strateji yol xəritəsi"ndə göstərildiyi kimi, ölkənin iqtisadiyyatının rəqabətqabiliyyətinin artırılması, inkluzivliyin artırılması, sosial rifahın müəyyənləşdirilməsi və dünya dəyər zəncirində yerin qazanılmasıdır.

**Aparıcı:** - Qeyd etdiyimiz kimi, gələn ay Duinq biznesin hesabatı açıqlanacaq. Bu, kifayət qədər nüfuzlu bir təşkilatdır. Ziyad müəllim, bax, bu hesabat, ümumiyyətlə, digər qlobal təşkilatların hesabatlarından nə gözləyirsiz?

**Ziyad Səmədzadə:** - Sənayeləşmə siyasətini götürək, biz dərk etməliyik ki, qloballaşan dünyada hər bir dövlət müstəqil siyasət yeritsə, dünya meydanında özünü qoruyub saxlayacaq. Bu nailiyyətlərin kökündə dövlət başçısının apardığı müstəqil iqtisadi siyasət dayanır. Bu müstəqil iqtisadi siyasət olmasaydı, əgər biz bütün çağırışlara qulaq assaydıq, onların dediklərini etsəydik, bu nailiyyətlər olmazdı. Məsələ dünya reytinqində yer tutmaq demək deyil, ən əsası bu yerin bazasını, kökünü yaratmaqdır. Bir müddət öncə bizə demək istəyirdilər ki, biz postindustrial cəmiyyətdə yaşayırıq, ona görə də yeni sənaye siyasəti yeritməyə ehtiyac yoxdur. Bu, yanlış fikirdir. Sənayemizin strukturu hələ səmərəli deyildir. Əgər sənayemizin strukturu tam kamil olsaydı, onda biz onun ÜDM-in payında 25% olması ilə də kifayətlənə bilərdik. Ona görə dövlət başçısı qlobal baxışları, milli maraqları əsas tutaraq ölkənin sənayeləşmə siyasətinin prioritet istiqamətlərini müəyyənləşdirdi. Baxın, indi Avropa ölkələri enerji tutumlu, kapital tutumlu, ekologiyaya zərər vuran sənaye müəssisələrini, zavodları geri qalmış ölkələrə təklif edirlər. Çünki onlar ən müasir texnologiyalardan istifadə etmək istəyirlər. Ona görə də hər bir layihəmiz müasir texnologiyalar baxımından qiymətləndirilməlidir. Hər dəfə yeni müəssisə açılanda cənab Prezidentə oradakı iş yerlərinin sayı haqqında məlumat verilir. Biz elmtutumlu, müasir texnologiyalı, eyni zamanda, əməktutumlu müəssisələrin yaradılmasına üstünlük verməliyik. Əmək ehtiyatları, demoqrafik şərait, regionların inkişaf səviyyəsi kimi amillər nəzərə alınmalıdır. Mən azərbaycanlı kimi, ziyalı kimi çox sevindim ki, cənab Prezident Balaxanıda Məişət Tullantıları Parkının açılışında iştirak etdi. İndi xatırlayıram, SSRİ Nazirlər Sovetinin birinci müavini Voronin ötən əsrin 80-ci illərində Bakıya gəlmişdi, bizimlə gedib Balaxanıya baxdı. Yaxına gəlmək mümkün deyildi. Həmin o Balaxanı dünyaya 100 milyon tondan çox neft verib.Amma burada abadlıqdan təmizlikdən danışmaq qeyri-mümkün idi. Amma bu gün ora gedirsən, nə qədər abadlıq və qaynar həyat var?!

Mən qarşıdakı beynəlxalq biznes qiymətləndirilmələrinə çox nikbin baxıram. Mən arzu edirəm ki, maliyyə sabitliyi şurasının fəaliyyəti nəticəsində banklarımızın göstəriciləri yaxşılaşsın, müəssisələr inkişaf üçün pul qıtlığı hiss etməsinlər, bankların real sektora dəstəyi artsın. Mən Azərbaycan iqtisadiyyatının keyfiyyətli inkişafına inanıram. Eyni zamanda, bu qiymətləndirilmələr müvafiq strukturlar qarşısında yeni vəzifələr qoyur. Hər kəs fikirləşməlidir ki, niyə mənim göstəricim azalıb? Niyə mən bunu gələn il sağlamlaşdırmayım? Mən əminəm ki, belə dinamika getsə, biz G20 içərisində iqtisadi reytinq göstəricilərinə görə ən qabaqcıl yerlərdən birini tutacağıq. Müharibədən sonra nə oldu? Dağıdılmış Almaniya, Yaponiya qısa zaman kəsiyində iqtisadi möcüzə yaratdılar. Marşal Planı haqqında da danışmaq olar.

**Aparıcı:** Vüsal müəllim qeyd etdi ki, ilk 40-lıqda qərarlaşan ölkələr artıq kifayət qədər güclü rəqiblərdir və əlbəttə, həmin rəqibləri üstələmək, həmin rəqiblər arasında artıq irəliləmək həqiqətən çox çətindir.

**Vüsal müəllim:** - Mən sonda xüsusən islahatların xarakteri və onun bu cür hesabatlardakı təsiri ilə bağlı ümumiləşdirilmiş fikir demək istəyirəm. Cənab Prezidentin şəxsən təşəbbüsü ilə həyata keçirilən islahatlar ilk növbədə inkluzivliyi ilə fərqlənir, yəni islahat dizayn olunanda cəmiyyətin bütün təbəqələri, beynəlxalq ictimaiyyətin nümayəndələri, müvafiq ekspertlər cəlb olunur. İslahatlar həyata keçirilərkən cavabdeh qurumlar və onların bunu həyata keçirmək üçün mexanizm və vaxtları müəyyənləşir. Eyni zamanda, indikatorlar müəyyənləşir ki, sonradan islahatın həyata keçirilməsi ilə bağlı fəaliyyətin qiymətləndirilməsi müəyyən olunsun. Beləliklə, bu alqoritm özü-özlüyündə islahatın uğurunu tərənnüm edir. İkinci vacib məsələ ondan ibarətdir ki, biz rəqabətqabiliyyətlilik hesabatından sonra daha 5 hesabatın açıqlanmasını gözləyirik. Gözlənilən odur ki, hər bir hesabatda Azərbaycanın mövqeyi yaxşılaşacaq, çünki bundan sonrakı Duing biznes başda olmaqla açılacaq digər hesabatlar istinad göstərir. Həmin islahatlar növbəti açılacaq hesabatlarda öz əksini tapacaqdır. Və üçüncü məsələ Azərbaycanda aparılan iqtisadi islahatlar təkcə dizayn edilməsi, həyata keçirilməsi, monitorinqin qiymətləndirilməsi əsasında aparılmır. Həm də bu islahatların qarşı tərəfdə, xüsusən biznes cəmiyyəti tərəfindən qavranılması məsələsi gündəmdədir. Buna görə iqtisadi islahatların təhlili və kommunikasiya mərkəzi var. Burada islahatın mahiyyəti daha dərindən anlaşılır və onun faydaları biznes cəmiyyəti, investorlar tətəfindən daha uyğun qəbul edilir, beləliklə bu, ölkənin iqtisadiyyatının davamlı inkişafını təmin edir.

**Yusif müəllim: -** Qarşıda bizi böyük işlər gözləyir. Ən əsası qarşımızda 3 əsas böyük sənəd var. Biri dayanıqlı inkişaf məqsədləri ilə bağlıdır. İkincisi, biznes mühitinin əlverişliliyinin artırılması və ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin daha da yaxşılaşdırılmasıdır. Digər vacib məsələ isə strateji yol xəritələri ilə bağlı məsələdir. 2016-cı ildə ilin birinci yarımilliyinin yekunlarında heç bu reytinq olmamışdan əvvəl də cənab Prezident tərəfindən müvafiq tapşırıqlar verilib: sənayeləşmə ilə bağlı sənaye parkları, məhəlləri ilə bağlı və s. Bütün bunların hamısı informasiya təminatının daha da yaxşılaşdırılmasını şərtləndirir. Çünki bütün bu reytinqlərin tərtib olunması hədəflərə nail olma vəziyyətinin qiymətləndirməsinin arxasında dayanan başlıca amildir. Cənab Prezident qeyd edirdi ki, hər bir kiçik statistik rəqəmin arxasında böyük bir reallıq dayanır. Ona görə də informasiya təminatının yaxşılaşdırılması istiqamətində də Statistika Komitəsi kompleks tədbirlər həyata keçirir.

**Aparıcı:** - Bu gün Azərbaycan bu uğura hansı şəraitdə imza atır? Qlobal iqtisadi gərginlik şəraitində. Böyük 20-yə daxil olan ölkələri - İtaliyanı, Rusiyanı, İndoneziyanı, Hindistanı, Türkiyəni Cənubi Afrikanı və digər ölkələri qabaqlayan Azərbaycanın Dağlıq Qarabağ problemi olmasaydı, torpaqlarımız işğal olunmasaydı, bu göstərici dəfələrlə yüksək olardı.

**Ziyad Səmədzadə:** - Heç şübhəsiz. Biz hələ 90-cı, sonra 2000-ci ilin əvvəllərində və son illərdə hesablamalar aparmışıq. Əgər bizim Dağlıq Qarabağ problemi, ermənilərin Azərbaycana təcavüzü olmasaydı, biz indi dünyada ən inkişaf etmiş keyfiyyətli həyat səviyyəsinə nail olmuş respublika idik. Çünki Qarabağ problemi Azərbaycan dövlətinə, Azərbaycan xalqına böyük mənəvi, maddi zərbə vurub və bu zərəri təkcə milyardlarla ölçmək kifayət deyildir. Bu zərərin aradan qaldırılmasına illər lazımdır. Təbii ki, resurslarımızın iqtisadi potensialımızın bir hissəsi qaçqınların problemlərinin həllinə yönəldilir. Amma nikbinliklə bildirmək istəyirəm ki, Azərbaycan iqtisadiyyatının uğurları artdıqca Qarabağ torpağının Azərbaycana qaytarılması prosesi sürətlənir.

Ona görə də Azərbaycan iqtisadiyyatı güclənməlidir, Ulu Öndər Heydər Əliyevin bir məşhur kəlamını səsləndirmək istərdim: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". Məhz bizim iqtisadiyyatımızın güclü olması, dayanıqlılığı möhkəm bazaya əsaslanması, cəmiyyətdə olan həmrəylik, cəmiyyətdə olan strateji məsələlərlə bağlı konsensus Azərbaycanın ərazi bütövüyünün təmin edilməsinə ümidlərini birmənalı şəkildə artırır. Mən bir daha cənab Prezidentə, təşəkkür edirəm ki, bu sahədə o, çox yorulmaz, məqsədyönlü iş aparır.

**Aparıcı:** Çox sağ olun, hər birinizə təşəkkür edirəm.

# REKLAM MƏTNİNİN QRAFİK TƏRTİBATI



Reklam mətninin qrafik tərtibatının üsulları haqqında söhbətə baş hərflərlə (yazılı) yığılan söz, söz birləşmələri və bütöv ifadələrdən istifadə edilməsi səlahiyyəti ilə əlaqədar qısa göstərişdən başlamaq lazımdır. Bu üsula mümkün qədər az müraciət etmək lazımdır; o reklam janrına nisbətən nəşrlərdə daha münasibdir. Reklam mətnində baş hərflərlə bunlar qeyd edilməlidir: sərlövhələr, deviz və ya sloqan kimi yarımsərlövhələr, əsas mətndə ayrı-ayrı sözlər (onların mətni tamamlayan əks-səda ifadəsi şəklində təkrarlanması arzuolunandır).

Bir mətn massivi üçün yerli-yersiz çoxlu müxtəlif şriftlərdən istifadə edilməsi tövsiyə olunmur. Əgər müxtəlif şriftlərdən istifadə olunursa, onda biri əsas, digəri isə əlavə şrift sayılır. Əlavə şrift ayrımənalı sözün, ayrımənalı ifadənin, ayrıca abzasın görmə qaydasında ayrılması üçün vacibdir. Mətnin böyük massivlərində (kitablarda, məqalələrdə, broşüralarda) müxtəlif şriftlərin tətbiqi, demək olar ki, həmişə zidd gəlir.

Təcrübəli reklamçılar əvvəllər əksər agentliklər tərəfindən "Times New Roman" və "Arial" şriftlərindən həddən artıq çox istifadə edilməsi səbəbindən bu şriftlərin tətbiqini məqsədəuyğun hesab etmirdilər. Onlat "Baskervill", "Bookman Old Style", "Garamond", "Peterburg", "Pragmatica", "Tahoma", "Verdana" və digər adları tövsiyə edirdilər.

Mötəbər reklam agentliyi digər agentliklərdə tətbiq edilməyən mövcud şriftlər əsasına yeni, fərdi şriftləri özündə yaratmağa imkan vermək iqtidarındadır. Xüsusi şrift kopirayterin və reklamçının ən güclü fərdiləşmə üsuludur: yaxşı zövq əlaməti, təkrar xüsusi üslub və işə peşəkar yanaşma.

Bir layihə üçün 200-dən artıq şrifti tətbiq etmək məqsədəuyğundur.

Mətnin görmə ilə qavranılması spektral tərkibə görə işıq şüalarında əks olunan görə bilmələrlə, yaxud fərqlərlə xarakterizə olunur ki, fiziologiyada görməni işıq hissiyatı adlandırırlar. Reklamçı reklamın ünvan sahibinə mətnin arzuolunan psixoloji təsirinə nail olmaqdan və eyni zamanda, onun diqqətini cəlb etməkdən ötrü ayrı-ayrı hərflərə, hesablara, sözlərə və hətta ifadələrə, eləcə də yazı üçün fonun rənginə diqqət yetirməlidir. Reklamçıya rənglərin seçilmiş palitrası hədlərində bu və ya digər uyğunlaşmaların rəng çalarlarının potensialını və ədəbi, nəzakəti nəzərə almaq vacibdir. Eyni zamanda, rəng təzadını da nəzərə almaq lazımdır ki, bunun hesabına bir rəng digərinin fonunda yaxşı görünsün.

Mətnin tətbiq edilməsi zamanı rəng təsiri ilə şərtləşən assosiasiyalar bir qədər özünəməxsusdur, çünki sözlər (yazılar) rəng kompozisiyasının mənalarına uyğun qat-qat yığılır. Buna görə də psixikaya müsbət təsir göstərən bəzi rənglər müəyyən sözlərlə uyğunlaşmada neqativ obrazı generasiya etməyə, yəni törətməyə qadirdir. Qeyd etmək lazımdır ki, rəng, demək olar ki, həmişə yalnız rəngin özü ilə yox, həm də onun mənbəyi ilə şərtlənir.

Yazılarda olan hərflərin çox zaman təkcə əlvan rənglənməyə yox, həm də bəzədilməyə ehtiyacı var. Rənglərin bəzədilməsi hərfləri daha orijinal və parlaq edərək, onların məkan kompozisiyasını və rəng palitrasını tamamlayan müxtəlif qrafik elementlərdən istifadə edilməsini tələb edir. Bəzədilmənin üç növü mövcuddur:

a) üslublaşma, bunun nəticəsində hərf özünün ən mühüm əlamətlərini saxlayaraq, ayrıca digər simvolu xatırladır;

b) hərfin simvolu ilə bütöv tamı yaradan və bununla da yalnız onun şəklini mürəkkəbləşdirməyən, həm də heroqlif şəkilləri yaradan qrafik elementlər;

c) hərfin arxasında və ya onun yanında yerləşən, lakin yazılmanın prinsipial üsullarını dəyişməyən başlıq şəkil.

Burada və ardınca mətndə xüsusi effektlər dedikdə, vizual sənətdən müsbət enerji ilə yazıya böyük dinamiklik və zənginlik verməyə imkan verən təsviri üsullar başa düşülür. Bunun hesabına yazının cəlbediciliyi yüksəlir və reklamın ünvan sahibinin şüurunda bu yazının mənasının yüksək, səmərəli translyasiyası həyata keçirilir.

Reklam mətninin tərtib edilməsi zamanı, həmçinin xüsusi effektlərdən (metal parıltısı, işıq zolağı, günəşin doğması, şüşə haşiyələnmə, tekstura (quruluşdakı xarici əlamətlər), kölgə, şəkil, əksetmə və s.) istifadə edilə bilər.

Çox zaman reklam mətninin tərtib edilməsi zamanı müəllif siqnaturasından – adətən verbal (şifahi) və təsviri işarələri uyğunlaşdıran şəxsi imzadan istifadə olunur. İşgüzar mühitdə müəllif siqnaturasından iri şirkətlərin prezidentləri tərəfindən aşağıdakı kimi istifadə edilməsi əlverişlidir:

a) işgüzar tərəfdaşlara və VİP müştərilərə ünvanlanan öz korrespondensiyasının ( yazışmaların) identifikasiya vasitəsi kimi;

b) məqalələrdə, bukletlərdə, kitablarda, şirkətlərin maliyyə hesabatlarında, müştərilərə və tərəfdaşlara (o cümlədən, potensial müştərilərə) müraciətlərin identifikasiya vasitəsi kimi;

c) firmanın bazar siyasətinin humanizm və sosial meyilliyini açan həmin şirkətin rəhbərliyinin hər hansı fikrini, mülahizəsini ehtiva edən reklam plakatlarının və posterlərin (ing. "poster" – "afişa", "elan", "plakat" deməkdir və reklam məqsədləri üçün iri bədii tərtibatlı plakatdır) bəzədilməsi kimi.

Reklam mətninin və ya reklam elanı mətninin yazılması zamanı oxucunun dərhal xidmət almaq və ya məhsul əldə etmək istədiyi cümlə əsasında fəaliyyət göstərmək lazımdır. Savadlı, təsirli reklam mətninin yaradılması üçün müəyyən qaydalara riayət etmək, müəyyən prinsipləri əsas götürmək lazımdır, lakin onlara heç bir halda etinasız yanaşmaq olmaz. Əsl yaxşı mətn gözə çarpmalı, maraq doğurmalı, emosiyalara toxunmalı, fayda gətirməli və xatırlanmalıdır. Bunun üçün reklam informasiyasının daşıyıcısının və firmanın ölçülərini əsas götürərək firmaya uyğun gələn reklam xəbərinin janrını seçmək lazımdır.

Mətnin psixoloji təsiri təkcə yazının mənası ilə deyil, həm də yazının qrafik tərtibatı ilə - üslubla, şriftlə, şəkillə, rəng çalarları və hərflərin bəzədilməsi ilə müəyyən olunur.

**F.M.Qarayev,**
**BDU-nun dosenti**




## "ARAZ" və "FAVORİT" birləşdi

2011-ci ildən fəaliyyət göstərən "ARAZ SUPERMARKET" və 2008-ci ildən fəaliyyətdə olan "FAVORİT-MARKET" şəbəkələri birləşərək pərakəndə sektorda birgə fəaliyyətə qərar verdiklərini bəyan ediblər.

Birləşmənin bəzi detalları məlum olub. Məlumata görə, birləşmə təcrübə, marketinq və PR dəstəyini nəzərdə tutur. "ARAZ Supermarket"dən bildirildi ki, birləşmə satınalma deyil, "birgə fəaliyyətdir".

Hal-hazırda"FAVORİT" adının ləğv edilərək "ARAZ"a dəyişdirilməsi müzakirə mövzusu deyil. "FAVORİT" brendi qorunub saxlanılacaq.

Araz Supermarket" şirkəti Azərbaycanda iri istehsal və idxal şirkəti olan "Veysəloğlu" qrupuna daxildir. Bu səbəbdən şirkət mal tədarükündə bazarda üstünlüyə malikdir. Alıcılar "FAVORİT-MARKET"də qiymətlərin yüksək olduğundan şikayət edirlər. Bu şəbəkənin "Araz Supermarket"ə birləşməsi birinciyə daha münasib qiymətlər təklif etməyə imkan verə bilər.

"Qiymət siyasəti bazara uyğun tənzimlənəcək. Biz müştərilərə daha münasib qiymətlər təklif edəcəyik. Bu birəşmənin əsas səbəbi istehlakçılara daha yaxşı xidmət göstərməkdir", - "Araz Supermarket"dən bildirilib.




## Barama əməkdaşları öz biznesinə başlamaq istəyən Gəncə startapları ilə görüşüb

Azercell Telekom MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi PAŞA Bankın dəstəyi ilə yerli startapların inkişafı üçün layihələrini davam etdirir. Mərkəz əməkdaşları bu dəfə Gəncədə fəaliyyət göstərən startapları bir araya gətirib. Sentyabrın 25-də Azərbaycan Texnologiya Universitetində keçirilən görüş biznes ideyalarının stimullaşdırılmasını və praktik biliklərin paylaşılmasını təmin etmək məqsədini daşıyıb. Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin əməkdaşları sahibkarlıq haqqında maarifləndirici məlumatları startaplarla bölüşərək, öz işlərini qurmaq üçün onlara dəyərli məsləhətlər veriblər. Gəncədə keçirilən tədbir möhtəşəm ideyası olan və öz biznesinə başlamaq istəyən, və yaxud hələ konkret bir ideyası olmayan, amma sahibkar olmaq istəyən insanlar üçün əla fürsət olub.

Qeyd edək ki, görüşdə Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin layihə koordinatorları Fidan Tofidi və İradə Məmmədova, Xtreme Pro və Green Baku ekoloji dəftərxanasının təsisçisi Samir Qədirov və Technote Media Platformasının Baş icraçı direktoru və təsisçisi Fərid Pərdəşünas iştirak ediblər. Tədbirin sonunda Gəncə startapları üçün elan edilən "Ganja Big İdea Competition" müsabiqəsi haqqında iştirakçılara geniş məlumat verilib və hər kəs bu müsabiqədə fəal iştiraka çağırılıb. Məlumat üçün bildirək ki, Gəncə şəhərində ilk dəfə təşkil edilən Böyük İdeya Müsabiqəsi bölgələrdən gələn tələbələrə öz biznes fikirlərini inkişaf etdirmək və təqdim etməklə mükafatlar qazanmaq imkanı verir.

Bütün təqdimatlar qəbul edildikdən sonra münsiflər heyəti tərəfindən qiymətləndiriləcək. Ən yaxşı 10 təqdimat finalçı olaraq seçiləcək və 12 oktyabr tarixində Barama internet səhifəsində və bütün iştirakçıların email ünvanına məktub göndərilməklə elan ediləcək. Oktyabrın 16-da keçiriləcək finalda isə komandalar öz ideyalarını hakim heyətinə təqdim edəcəklər. Komandalar finalda biznes-planla birlikdə təqdimat hazırlamalı və 10 dəqiqə ərzində çıxış etməlidirlər.

Qalib gələn komandalar aşağıdakı hədiyyələrlə mükafatlandırılacaqlar:

1-ci yer – 500 AZN dəyərində hədiyyə kuponu

2-ci yer – 300 AZN dəyərində hədiyyə kuponu

3-cü yer – 200 AZN dəyərində hədiyyə kuponu

"Ganja Big Idea Competition" ideya müsabiqəsinin məqsədi müxtəlif, o cümlədən mobil proqramlar, İnternet, proqram təminatı, oyunlar, xidmət proqramları, korporativ proqram təminatı, yeni biznes modelləri, xidmətlər, robotlar, informasiya texnologiyaları və istehlakçı elektronikası, səhiyyə, kənd təsərrüfatı, IoT, qeyri-neft sektoru, kimya üçün informasiya texnologiyaları sahələrində innovativ ideyaların tapılmasıdır.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500